

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Yeni Azərbaycanla 7-ci seçkiyə!

## 6 gün qalır...


YENİ AZƏRBAYCAN

01 fevral
2024-cü il,
cümə axşamı
№ 019 (6605)
Qiyməti
60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




# Yeni Azərbaycanla 7-ci seçkiyə! 6 gün qalır...

# Möhkəm daxili sabitlik, sarsılmaz xalq-iqtidar vəhdəti

Müstəqil Azərbaycan fevralın 7-də keçiriləcək Prezident seçkilərinə son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan böyük nailiyyətlərlə gedir. 20 il inkişaf baxımından bütöv bir mərhələdir. Bəhs olunan dövrdə keçilən yola nəzər saldıqda biz görürük ki, respublikamız bu mərhələni öz gücünə güvənərək ləyaqətlə keçib, qlobal miqyasda müşahidə edilən iqtisadi, siyasi, hərbi kataklizmlərə baxmayaraq, möhkəmlənib, özünün milli maraqlarından geri çəkilməyib və əsas ümummilli ideyalarının həyata keçirilməsini təmin edib. Ərazi bütövlüyünün və suverenliyin təmin olunması İlham Əliyevin Prezident kimi fəaliyyətinin ən böyük uğurudur və Onun xalqımıza yaşatdığı əvəzolunmaz xoşbəxtlikdir. Qərinələr ötəcək, ancaq bu qələbələrə görə yaşanan qürur hissi həmişə xalqımızla olacaq. Fevralın 7-də Prezident seçkiləri müstəqil Azərbaycanın tarixində ilk dəfə ölkənin bütün ərazisində keçiriləcək. Prezident İlham Əliyev bir qədər bundan əvvəl yerli televiziya kanallarına verdiyi geniş müsahibəsində ölkəmizin bugünkü hər cəhətdən müsbət mənzərəsinə diqqət çəkərək məmnunluqla vurğulayıb: “Son 20 ilin tarixinə gəldikdə isə hər şey göz qabağındadır. Əgər biz bu haqda geniş danışsaq, yəqin ki, bütün müsahibəni buna həsr etməli olacağıq. Sadəcə olaraq, onu demək istəyirəm ki, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Hesab edirəm ki, bu, həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. Bu, təkcə mənim fikrim deyil, mənim bəzi həmkarlarım da bu barədə kifayət qədər açıq danışıblar”.

Bəs 20 ildə qazanılan möhtəşəm uğurların, qələbələrin mənbəyini harada axtarmaq lazımdır? İnamla irəliləyən Azərbaycan tükənməz sinerjisini hansı amillərdən alır?



Respublikamızda yaşanan möhkəm daxili sabitlik və xalq-iqtidar vəhdəti dünyaya nümunəvi inkişaf modeli təqdim edən Azərbaycanın uğur formulunun ən

## Azərbaycanda sabitliyin mənbəyi xalqdır

xarakterik cəhətidir. Prezident İlham Əliyev belə bir fikri dəfələrlə vurğulayıb: “Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, aksiomdur. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf dayanır, sərmayə qoyuluşu dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür”.

Hazırda dünyanın müxtəlif bölgələrində arzuolunmaz kataklizmlər yaşanır. Geosiyasi gərginliklər, yeni-yeni müharibə ocaqlarının baş qaldırması, daxili ixtişaşlar, iqtisadi tənəzzül meyllərinin güclənməsi, maliyyə çatışmazlığı, ərzaq, enerji təhlükəsizliyinin təmin olunmasında ortaya çıxan çətinliklər, milli valyutaların kəskin dəyər itirməsi ayrı-ayrı ölkələrin kədərli mənzərəsini səciyyələndirir. Dünyadakı bu kimi reallıqlar fonunda Azərbaycanın sabitlik adası kimi fərqlənməsi xüsusi diqqət çəkir. Bəli, çoxlu sayda ölkə sadalaya bilərik ki, onlar məhz daxili sabitliyin pozulması səbəbindən inkişafla bağlı problemlər yaşayırlar. Bir anlığa təsəvvürümüzdə canlandıraq: Sabitliyi pozulan, qarşıdurmaların yaşandığı dövlətlərdə nə görəcəyik? Dağıntılar, sıradan çıxan infrastruktur, qardaş qanının axıdılması, insanların köç etməsi... Vətəndaş həmrəyliyi, iqtidar-xalq birliyi olmayan ölkələrin tipik mənzərəsi məhz bu kimi acı təəssüf doğuran məqamlarla səciyyələnir.

Dünyanın ayrı-ayrı regionlarında yaşanan gərginliklərlə müqayisədə Azərbaycandakı vəziyyət tamam fərqli bir rakursdan diqqəti çəkir. Xalqımız öz gələcəyini əmin-amanlıq şəraitində qurur, gələcəyə ümidlə baxır. Möhkəm sabitlik ölkənin perspektiv inkişafı üçün fundamental amil rolunda çıxış edir. Açıq deyə bilərik ki, bu gün anarxiya labrintinə düşən ayrı-ayrı ölkələrə qeyri-sabitlik kənardan, məkrli güc mərkəzləri tərəfindən ixrac olunub. “Ərəb baharı”, “rəngli inqilablar” dalğasını xatırlayaq. İqtidar-xalq həmrəyliyi zəif olan bir sıra ölkələrdə insanlar “inqilab missionerləri”nin şirin vədlərinə aldandılar və öz həyatlarını, ölkələrini təhlükələrə doğru çəkdilər. Etiraf edək ki, belə məkrli niyyətlərlə biz də üzləşmişik. Ancaq xalqımızın müdrikliyinin, uzaqgörənliyinin və iqtidarla sıx həmrəyliyinin məntiqi nəticəsi olaraq respublikamızda anarxiya törətmək cəhdlərinin qarşısı qətiyyətlə alındı. Azərbaycan xalqı özünün, ölkənin etibarlı gələcəyini daxili sabitliyin, vətəndaş-iqtidar həmrəyliyinin qorunmasında görür. Bizə kənardan gələn “canıyananlar” lazım deyil. Qarşısıalınmaz milli gücümüz həmrəyliyimizdədir, bir-birimizə, dövlətimizə, Prezidentimizə arxa, dayaq durmağımızdadır. Biz çəkici bir zindana vursaq, bütün məqsədlərimizə çatacağıq. Necə ki, bir-birinin ardınca böyük hədəflərimizə çatırıq.

Vətən müharibəsində qazanılan parlaq qələbə, işğalçı Ermənistanın tam şəkildə kapitulyasiyaya uğradılması azərbaycanlılar haqqında məğlub xalq sindromunu

## Güclü xalq-iqtidar birliyi Vətən müharibəsində böyük Qələbəmizi təmin edən çox mühüm amil oldu

sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Əlbəttə, müharibənin qələbə ilə başa çatmasını şərtləndirən bir sıra fundamental amilləri sadalamaq mümkündür. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca amilidir.

Vətən müharibəsindəki parlaq Qələbəmizin mənbəyində dayanan əsas amillərdən biri də cəmiyyətimizin monolitliyi və həmrəyliyidir. Ölkəmizdəki güclü Prezident-xalq-ordu vəhdəti xarici təzyiqləri dəf etməyə və müharibəni qələbə ilə başa çatdırmağa imkan verdi. Məlum olduğu kimi, döyüş meydanında acı məğlubiyyətlə üzləşən Ermənistan ordusu bunun əvəzini mülki infrastrukturu, şəhər və kəndlərimizi atəşə tutmaqla çıxmağa çalışırdı. Qarşı tərəf düz üç dəfə razılaşdırılmış humanitar atəşkəs rejimini pozdu. Döyüş bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Ağcabədi və digər yaşayış məntəqələrimiz ağır artilleriyanın hədəfinə çevrildi. Tərtər İkinci Dünya müharibəsi dövründə dağılmış Stalinqrad şəhərini xatırladır. Bütövlükdə, müharibənin davam etdiyi günlərdə ayrı-ayrı yaşayış məntəqələrimizə yüzlərlə mərmi düşüb, nəticədə 90-dan çox dinc sakin həyatını itirib, təxminən 400 insan yaralanıb. Ancaq bütün bunlar xalqımızın iradəsini sındıra bilməyib. Təsadüfi deyildir ki, düşmən atəşinə tuş gələn şəhər və kəndlərimizin sakinləri öz doğma ev-eşiklərini tərk etməyiblər. Xalqımızın şücaətinə, vətənpərvərliyinə diqqət çəkən Prezident İlham Əliyev “Ermənilər qaçıb getdilər. Onların “yenilməz” ordusu məhv oldu, fərarilik başladı, xunta başçısı Dağlıq Qarabağda əmr verdi ki, kim oradan qaçacaq, o, məsuliyyətə cəlb olunacaq. Bizdə bir nəfər fərari oldumu? Olmadı! Bir nəfər də olmadı! Budur Azərbaycan xalqı! Mülki vətəndaşlar, evi dağılıb, malı batıb, yaxın insanını itirib, yenə də deyir ki, “Vətən sağ olsun”. Ancaq irəli, irəli! Mənə yazılan məktublarda deyilir, Ali Baş Komandan, irəli! Dəstəkləyirik səni, get irəli, dayanma və getmişəm, dayanmamışam”, - deyə bildirib.

Başqa bir önəmli cəhət ondan ibarətdir ki, ölkəmizdə fəaliyyət göstərən əksər siyasi partiyalar, vətəndaş cəmiyyəti təsisatları da Vətən müharibəsində Prezidentin, Ali Baş Komandanın yanında olduqlarını bildirdilər. Müharibənin elə ilk günlərində 50 partiya birgə bəyanat imzalayaraq Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində siyasi baxışlarındakı fərqi kənara qoyduqlarını və Ali Baş Komandanı dəstəklədiklərini bildirdilər. Şuşa şəhəri işğaldan azad edildikdə müxtəlif partiyaların təmsilçiləri Ali Baş Komandana bu zəfər münasibətilə təbrik ünvanladılar. Bütövlükdə, cəmiyyətin monolitliyi, həmrəyliyi Azərbaycanın milli gücünü daha da artırdı, böyük Qələbəmizin təmin olunmasına əlavə impuls verdi. Heç bir şübhə yoxdur ki, Azərbaycan xalqı bundan sonra da öz Liderinə böyük etimad göstərərək təmkin nümayiş etdirəcək, hərbi qələbələrimizi siyasi qələbə kimi möhkəmləndirəcək, yumruq kimi Prezidentimizin ətrafında birləşəcək, daim Onunla bir yerdə olacaq!

# Heydər Əliyevin həyatının unikal səhifələri




Geniş dünyagörüşünə, yüksək intellektə, aydın düşüncəyə və məntiqə malik olan Heydər Əliyev elm, təhsil, siyasət, iqtisadiyyat, sənaye, təhsil, tarix, hüquq, ləyaqət, incəsənət və s. sahələrinin dərin bilicisidir. Bu mənada, onun bu sahələrlə bağlı fikirləri, mülahizələri çox önəmlidir. Elə bu baxımdan Heydər Əliyevin həm Azərbaycanda keçirilən müxtəlif səviyyəli rəsmi tədbirlərdə, həm də ayrı-ayrı xarici, ölkələrə səfərləri zamanı təşkil edilən görüş və yığıncaqlarda söylədiyi məruzələr, nitqlər və çıxışlar çoxcildli kitablar şəklində nəşr edilərək, geniş oxucu kütləsinə çatdırılmaqdadır.

Məlum olduğu kimi, görkəmli dövlət, elm və mədəniyyət xadimləri haqqında biblioqrafik informasiya mənbələri həmin şəxsin sosial həyatının, elmi-ədəbi fəaliyyətinin tədqiqində, onun öz əsərlərinin və haqqında yazılmış ədəbiyyatın yaddaşlara həkk olunmasında, indiki və gələcək nəsillərin biblioqrafik informasiya axtarışında misilsiz əhəmiyyət kəsb edir. Siyasi dövlət xadiminə həsr olunan biblioqrafik informasiya mənbələri həm də həmin şəxsin dünyagörüşünün, çoxcəhətli, ictimai-siyasi, ideoloji fəaliyyətinin cəmiyyətin inkişafında və dövlətçiliyin möhkəmləndirilməsində, beynəlxalq iqtisadi, elmi və mədəni alaqələrin genişlənməsindəki misilsiz rolunun təbliğində və yayılmasında mühüm vasitədir. Nüfuzlu biblioqrafiyaşünas alimlər biblioqrafik informasiya nəşrlərinin tarixin ayrı-ayrı mərhələlərində tədqiqatçılar və kitab həvəskarları üçün nadir və qiymətli çap əsərlərinə dair “Qırmızı kitab” rolu oynadığını iddia etməkdə yanılmırlar.

Yeri gəlmişkən, ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev ili” elan edildi. Bu tarixlə əlaqədar olaraq bütün sahələr üzrə qarşıya mühüm vəzifələr qoyuldu. Onlardan biri də dahi şəxsiyyətin həyat və fəaliyyətini əks etdiyən bir sıra kitablar, jurnallar və müxtəlif nəşrlərin hazırlanması idi. Həmin kitablardan biri Ulu Öndərin ən yaxın silahdaşlarından biri, 91-lərin nümayəndəsi professor Şahlar Əsgərovun Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev haqqında yazdığı “Heydər Əliyevin həyatının unikal səhifələri” kitabıdır. Onun fenomenal və bənzərsiz adlandıra biləcəyimiz həyatının unikal səhifələri barədə düşüncələri, xatirələri mühakimə və mülahizələri kitabda yer alır. Kitab dahi şəxsiyyəti göründüyü kimi yox, olduğu kimi tanımaq məqsədilə yazılıb. Bu məlumat kitabı bütün həyatını öz xalqına xidmətə həsr etmiş görkəmli şəxsiyyətin ictimai-siyasi fəaliyyətinin əsas anlarını əhatə edir.

Kitab “UNEC” rəqəmsal mətbəəsində 2023-cü ildə çap olunub. Kitaba ön söz yazan Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradovun da dediyi kimi, Heydər Əliyev irsi çox zəngindir və bugünkü milli dövlətimizin iqtisadi və ideoloji əsasını təşkil edir. Dörd fəsildən ibarət olan nəşrin birinci fəslində Heydər Əliyev haqqında düşüncələr öz əksini tapıb. Bu fəsildə yazarın Heydər Əliyevlə görüşlərindən, dünya liderlərinin Ulu Öndər haqqında fikirlərindən bəhs olunub. İkinci fəsildə zəmanəmizin nadir şəxsiyyətlərindən biri olan, dünya miqyasında tanınmış siyasətçi və dövlət xadimi Heydər Əliyevin xidmətləri və keçdiyi ömür yolu elmi əsaslarla dərindən və hərtərəfli tədqiq olunaraq oxucuya çatdırılır.

Üçüncü fəsildə Heydər Əliyevin fəaliyyət göstərdiyi dövrlərdə ərsəyə gətirdiyi əlayazmalar haqqında qeydlər yer alır. Nəhayət, sonuncu - dördüncü fəsildə mahiyyət və məna etibarilə uca olan, Vətən, xalq amalı ilə yaşayan Heydər Əliyevin həyat fəlsəfəsi, onun bəşəri dəyərlər xəzinəsinə töhfəsi, liberal-maarifçilik ideyaları, aforizmləri barədə bölmələrdə geniş məlumatlar qeyd edilib.

Kitabın son sözündə ümumi qeyd edilənlərin cəmi və analitik təhlili aparılaraq Heydər Əliyev haqqında 5 xüsusi məqam qeyd edilir. Burada o, ilk olaraq müasir Azərbaycan dövlətinin banisi və qurucusu kimi diqqətə çatdırılır. Digər tərəfdən, Ulu Öndərin həmvətənlərindən fərqli bir ömür yaşadığı qeyd olunur. Bundan əlavə Heydər Əliyevin iki dəfə hakimiyyətdə olduğu dövrdə birinci dəfə qurucu rəhbər, ikinci dövrdə isə filosof-prezident kimi xarakterizə olunduğu bildirilir. Son olaraq onun yaratmış olduğu zəngin irsdən, maddi dəyərlər məcmusundan söhbət açılır. Son sözün sonuncu cümləsi isə hər birimizin dilində şüara çevrilən məşhur bir kəlamla bitir: Mən fəxr edirəm ki, azərbaycanlıyam!

***Günel ABBAS***

## Liderin xalqa xidmət etmək nümunəsi

Uğurlu dövlət olan Azərbaycanın sienerjisinin əsas mənbələrindən biri qismində, heç şübhəsiz ki, Lider amili çıxış edir. Son 20 ildə Prezident İlham Əliyev sözün əsl mənasında xalqa xidmət etmək nümunəsi ortaya qoyub. Azərbaycan məmurları müəyyən mənada çox şanslıdırlar - onlar Prezident İlham Əliyevin genişmiqyaslı fəaliyyətini, dövlətə və xalqa bağlılığını özləri üçün deviz müəyyənləşdirə bilərlər. Dövlət başçımızın fəaliyyəti bir etalon nümunəsidir. Onun iş qrafikində fasilə yoxdur. Prezident İlham Əliyev hətta bazar günlərində də iş başında olur. Azərbaycanın dövlət başçısı mütəmadi qaydada regionlara səfərlərə gedir, ictimaiyyətin nümayəndələri ilə görüşür. Bu səfərlər və görüşlər izsiz ötüşmür. Dövlət başçısı bir tərəfdən əvvəllər verdiyi tapşırıqların icra vəziyyətini öyrənir, digər tərəfdən isə gələcək fəaliyyət üçün zəruri olan yeni məlumatları, necə deyərlər, ilk mənbədən alır. Prezident İlham Əliyevi fərqləndirən, Ona olan inamı artıran amillər də məhz Öz işinə peşəkar yanaşmasıdır, Öz missiyasını xalqa xidmət etməkdə görməsidir. Vəzifəyə təyin olunan kadrlar da Prezident İlham Əliyevin iş üslubunu mənimsəməlidirlər. Onların işi heç bir halda kabinet işi olmamalıdır. Məmurlar hər yerdə və hər zaman vətəndaşların qayğıları ilə yaşamalıdırlar. Bu xüsusda fikirlərini diqqətə çatdıran Prezident İlham Əliyev bildirib: “Mən Prezident kimi öz vəzifəmi bunda görürəm - xalqa xidmət etmək. Məhz, bu xidmətə görə Azərbaycan xalqı bizə çox böyük dəstək göstərir”.

Prezident İlham Əliyev əvəzolunmaz Lider qabiliyyətini ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasında bir daha nümayiş etdirdi. Bəli bu gün Azərbaycan cəmiyyətində birmənalı şəkildə qəbul olunur ki, 44 günlük müharibədə və 23 saatlıq antiterror tədbirlərində qazandığımız möhtəşəm qələbələrimizin əsas memarı məhz İlham Əliyevdir. Xatırlayırıq, bəzən Onu qınayırdılar ki, niyə torpaqlarımızı işğaldan azad etmək üçün Orduya əmr vermir, niyə tələsmirik. İlham Əliyev isə strateji səbr ortaya qoyur, diplomatik səylərini artırmaqla paralel şəkildə, həm də digər variantlar üçün də ciddi hazırlıqlar görülməsini təmin edirdi. Məhz nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən İlham Əliyev Müzəffər Lider kimi ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsinə nail oldu. O bütün dünyanı heyrətləndirərək bunu tələsmədən və gecikmədən etdi.

## Seçkilərdən - seçkilərə artan inam

Adətən ayrı-ayrı ölkələrdə liderlər vədlər verərək hakimiyyətə gəlirlər. Lakin çox keçmir ki, verilən vədlərin sabun köpüyündən başqa bir şey olmadığı üzə çıxır. Beləliklə də onlara qarşı cəmiyyətdə əks-münasibət yaranır, populyarlıq, etimad göstəricisi sürətlə aşağı düşür. Prezident İlham Əliyevə gəldikdə isə, tamam fərqli mənzərə müşahidə edilir. Azərbaycan Liderinin populyarlığı, xalqın Ona bəslədiyi etimad nəinki azalmır, əksinə getdikcə daha da artır.

Seçkilər cəmiyyətin əhval-ruhiyyəsinin barometridir. Diqqət çəkən məqam ondan ibarətdir ki, İlham Əliyev son 20 ildə ölkəmizdə keçirilən bütün Prezident seçkilərində öz rəqiblərini böyük səs çoxluğu ilə arxada qoyub. Beləlikə, İlham Əliyev 2003-cü il oktyabrın 15-də ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. Prezident seçkilərində seçicilərin 76 faizindən çoxu İlham Əliyevin lehinə səs verib. 2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 faiz səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. 2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə seçicilərin 84,54 faizinin səsini qazanan İlham Əliyev növbəti dəfə dövlətimizin başçısı seçilib. 2018-ci il aprelin 11-də keçirilən Prezident seçkilərində isə İlham Əliyev seçicilərin 86,02 faizinin səsini qazanmağa nail olub. Bu, dünyada analoqu olmayan bir nümunədir.

Yeni Azərbaycan Partiyası (YAP) növbəti yeddi ilə də partiyanın Sədri İlham Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyini irəli sürüb və bu təşəbbüs ölkəmizdə fəaliyyət göstərən çoxsaylı ictimai təşkilatlar tərəfindən dəstəklənib. Hazırda bütün ölkə üzrə Azərbaycan Respublikası Prezident seçkiləri ilə əlaqədar seçki qanunvericiliyinə uyğun olaraq yanvarın 15-dən başlayan seçkiqabağı təşviqat kampaniyası uğurla davam edir. Bu günlərdə bütün ölkə ərazisində Prezident seçkiləri ilə əlaqədar YAP tərəfindən namizədliyi irəli sürülmüş İlham Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlər keçirilir. Həmin görüşlərdə seçicilər YAP-ın namizədinə böyük hörmət və inamlarını ifadə edirlər və qətiyyətlə bildirirlər ki, onların seçimi yenə də məhz İlham Əliyevlə bağlı olacaqdır. Seçicilərin İlham Əliyevə dərin inamlarının əsasında isə Onun Azərbaycanın dövlət başçısı kimi uğurlu fəaliyyəti dayanır. Gücünü kənar qüvvələrdən deyil, məhz öz xalqından alan Lider həmişə qalib olur!

***Mübariz ABDULLAYEV***

# Yeni Azərbaycanla 7-ci seçkiyə! 6 gün qalır...

## Müsahibə

əvvəli ötən sayımızda



# HİDAYƏT ORUCOV: ULU ÖNDƏRİN DAHİLİYİ QƏRBİ AZƏRBAYCANDAN DAHA AYDIN GÖRÜNÜRDÜ

**- "Erməni xəstəliyi- davası, dərmanı yox..." yazmısınız. Həqiqətən bu xəstəliyin dərmanı yoxdur?**

- Onun davası-dərmanı uzun müddət idi yox idi. Amma indi onun dərmanı 44 günlük Vətən Müharibəmiz, dəmir yumruq oldu. Onlar artıq düşünməlidirlər, bilməlidirlər ki, başlarının üstündə dəmir yumruq var. Allah cənab Prezidentimizə ömür versin, bu işlərin hamısını sona çatdırsın.

**- Kəndinizlə bağlı başqa hansı peşmanlığınız var?**

- Mən kəndimizdən çıxanda qəlbimdə dəli ümid vardı. Fikirləşirdim ki, İrəvanda 1948-ci ilə qədərki Azərbaycan kultunu, mədəniyyətini, ədəbiyyatını, milli-mənəvi dəyərlərini dirçəldəcək, inkişaf etdirəcəyəm. Özümü xalqım qarşısında, yurdum qarşısında borclu hesab edirdim. Bunun üçün də bütün ömrüm boyunca çalışdım. Amma hər zaman özümü kəndimizə, Vətənimizə borclu hesab etmişəm.

**"Ədəbiyyat həyata borcludur"**

**- Deyirsiniz ki, Aldərədə yazdığınız şeirlərin sonunda inam vardı, ruh vardı. Bəs sonrakı şeirlərinizdə necə idi bu inam?**

- Aldərədə oxuyanda mən ancaq ədəbiyyatı bilirdim, həyatı ədəbiyyatın gözü ilə görürdüm. Şeirlərim də daha çox ədəbi qəhrəmanlara xitabən yazılırdı. O vaxt mənə elə gəlirdi ki, bizim kəndimizdə, təhsil aldığım Lökdə, Aldərədə, ümumiyyətlə, Mığrıda, Zəngəzurda Yaqo, Mefistofel kimi mənfi qəhrəmanlar yoxdur. Sonra həyatı öyrəndikcə gördüm ki, ədəbi müsbət qəhrəmanlar kimi mənfi "qəhrəmanlar" da varmış.

**- Maraqlıdır, nə zaman nə ilə anladınız ki, həyat ədəbiyyat deyil?**

- Həyat həm ədəbiyyatdır, həm də ədəbiyyatda tam əksi deyil. Tələbəlik illərində ilk kurslardan sonra hiss etdim ki, həyat ədəbiyyatda olduğu kimi kifayət qədər əks olunmayıb. Hiss etdim ki, ədəbiyyat həyata borcludur. Çünki indiyə kimi də ədəbiyyat həyatı olduğu kimi əks etdirə bilməyib. Axı ədəbiyyat necədir onu hamı bilir, yazıçı isə öz gördüklərini, duyduqlarını, düşündüklərini qələmə alır.

**- Olduğu kimi əks etdirməyə nə mane olur?**

- Çox şey mane olur. İstedad, həyatda baş verən proseslər, zamanın, davranış qaydalarının, düşüncələrin, nəsillərin və sair dəyişməsi. Əsl ədəbiyyat isə hər zaman qalır.

**"Ömrümün ən unudulmaz və ən uzun səfəri idi"**

**- Qayıdaq 1966-cı ilin 14 mart gecəsində sevinclə tərk etdiyiniz Mığrıya... İndi necə xatırlayırsınız?**

- Ömrümün ən unudulmaz və ən uzun səfəri idi doqquz saatlıq Mığrı-İrəvan yolu. Sonra çox ölkələr gəzdim, saatlarla, günlərlə yollarda oldum. Amma bu səfər həmişə mənə ən uzun səfər kimi gəlib. 14 mart gecəsi Arazın qırağı ilə qarsalanmış Naxçıvan torpağı ilə İrəvana getdim. Mənə elə gəlirdi, bayaq dediyim kimi, İrəvanda 1948-ci ilə qədər mövcud olmuş Azərbaycan kultunu bərpa edəcəyəm. Orada Azərbaycan ədəbiyyatı, mədəniyyəti yüksələcək. Əlbəttə, bu, 21 yaşlı gəncin emosional ümidi, arzusu idi. Açığı, həmin vaxt mən Bakıya gələ bilərdim. Erməni millətçiliyindən uzaq olardım, daha çox kitabım çıxardı, daha yüksək vəzifələrdə olardım. Ancaq mən İrəvana getdim və 18 il orada yaşadım. Bütün səmimiyyətimlə deyim ki, bu 18 ildə orada Azərbaycan kultunun möhkəmlənməsi, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafı üçün nə mümkündür- hamısını etdim. Hətta bəzən qeyri-adi müsbət nəticələr də oldu. 16 il İrəvan Dövlət Azərbaycan Dram Teatrına rəhbərlik etdim. O vaxt həmin teatr Cənubi Qafqazın ən yaxşı dövlət teatrlarından biri sayılırdı. Moskvada da tanınırdı. Kollektiv də, mən də Azərbaycanın, Ermənistanın, SSRİ-nin yüksək mükafatlarını, fəxri adlarını aldıq.

**- Bu gün də "kaş çıxmayaydım" dediyiniz olur?**

- O həmişə olur. Mən özümü bu gün də borclu hiss edirəm. Qalsaydım, şübhəsiz, qaçqınlardan biri də mən olacaqdım. Amma 1984-cü ildə mənim İrəvandan çıxmağımın səbəbi ailə vəziyyətimlə bağlı idi.

**- "Borc" demişkən, Mığrı bayatılarınızı xatırladım. Həmin bayatılarınızda bir məhcubluq hiss olunur. Deyirsiniz ki, "borcunu qaytarammaz bugünkü ev-eşiyim". Hansı borc?**

- Bu gün də elədir. Mənim babamın, atamın, böyük qardaşımın, doğmalarımın qəbri, doğulduğum, böyüdüyüm ata evim, ilk təhsilimi aldığım məktəb oradadır.

**- Uşaqlığınızla, xüsusən, ata evinizlə bağlı heç unutmadığınız hansı xatirəniz var?**

- Atam dünyasını dəyişəndə ailəmizdə yalnız məndən nigaran gedib. Çünki mən evin sonbeşiyi idim, o vaxt hələ məktəbə getmirdim. Məndən böyük altı qardaş-bacı oxuyurdular, işləyirdilər. Çox narahat olub ki, məndən sonra bu uşağın axırı nə olacaq? Ölümünə az qalmış mənə dedi ki, əgər sənə desələr ki, atan öldü, sən ağlama, düzdür, aparıb, məni dəfn edəcəklər, amma mən qayıdacam, heç pis olma. 3-4 gün sonra gündüz gələrsən Ağzəminin kəndə baxan dikinə, məni gözləyərsən, gələcəm. Sonra atam vəfat etdi, mən pis oldum, qəbiristanlığın yarısınacan çığırıb ağlaya-ağlaya getdim, kişilər, qadınlar məni güclə qaytardılar evə. Hətta yadımdadır ki, qadınlardan biri dedi, bizim də atamız ölüb, heç belə ağlamamışıq.

Sonra gəldim evə, 2-3 gün keçdi, atamın dediyi kimi getdim Ağzəminin kəndə baxan tərəfinə. Axşama kimi gözlədim, atam gəlmədi. Sonra günlərlə getdim Ağzəmiyə, gözlədim, gəlmədi. Anladım ki, bu, ata təsəllisi imiş. Bəs niyə atam Ağzəminin bu tərəfini demişdi? Çünki Ağzəminin o biri tərəfindən qəbiristan görünürdü. Atamın məzarı da təzə idi, hələ başdaşı qoyulmamışdı. Atam düşünüb ki, Ağzəminin o tərəfindən baxanda məzarı görüb qorxaram, ümidsiz olaram. Uşaqlığımdan çox xatirəm var, amma bunu heç unutmuram- atam məndən çox nigaran gedib...

**"Xalqların qonşuluğu mənzil qonşuluğu deyil ki..."**

**- Azərbaycanda ən birincidən, ən sadə təbəqəyə qədər elə bir şəcərə yoxdur ki, erməni terrorizmindən əziyyət çəkməsin. Sizcə, bu, xalqımızın bəxtsizliyidir, yoxsa, coğrafiyanın oyunudur?**

- Bəli, çox düzgün vurğuladınız. Tək 1988-ci ildə yox, 1905-ci ildə, 1918-ci ildə, 1948-52-ci illərdə, sonrakı dövrlərdə... Ulu Öndərimizin böyük qardaşı Həsən Əliyev mənə dedi ki, Ulu Öndərin atası, anası Sisian rayonunun Comardlı kəndindən idilər. Həsən Əliyev özü də orada doğulmuşdu. 1918-ci ildə onlar oradan qaçqın düşəndə təkcə Əlirza Əliyevin ailəsindən 17, ya 18 nəfər şəhid olub. Belə ailələr çox olub.

Bu, həm erməni xalqının dəhşətli yırtıcı xislətidir, həm də coğrafiyadır. Xalqların qonşuluğu mənzil qonşuluğu deyil ki, qonşun xoşuna gəlmədi, mənzilini dəyişib çıxıb gedəsən. Biz burada yaşamalıyıq, təəssüf ki, onlar da orada. Ona görə də dəmir yumruq hər zaman başlarının üstündə olmalıdır.

**- "Burdan min atlı keçdi" kitabınızda adını çəkdiyiniz erməni canilərindən Nijdedən danışmaq istərdik. Onu çox adam tanımır.**

- Bəli, Azərbaycanda onu çox da tanımırlar. Amma Qərbi Azərbaycanda yaxşı bilirlər. Xüsusən, onun Zəngəzurda- Mığrıda, Qafanda, Oxçuda törətdiyi qırğınları çox yaxşı bilirlər. Dəhşətli, yırtıcı bir tipdir. Nijde başkəsən olub. Mən azərbaycanlılardan ona qarşı vuruşan adamları da görmüşəm. Bəziləri dünyasını dəyişmişdi, bəziləri isə hələ də yaşayırdı. Nijde və ətrafı döyüşkən idi, təlim keçmişdilər, ancaq bacarıqlarını vəhşiliyə çevirmişdilər. Çar zamanı azərbaycanlıları əsgər aparmırdılar. Amma erməniləri aparırdılar. Bu da düşünülmüş yırtıcı siyasət idi.

**"Mən bütün həyatımı Bütöv Azərbaycana və əlbəttə, Qərbi Azərbaycana həsr etmişəm"**

**- Mığrı çayına xitabən yazdığınız şeirdə "sən quruma, mən quruyum..." deyirsiniz. Bu misranı oxuyanda cənublu soydaşlarımızın qurumaqda olan Urmu gölü fəryadını xatırladım. Sanki Vətən həsrətli insanlarımızın göz yaşları sel olduqca çaylar, göllər quruyur axı...**

- Urmu Gölünün quruması çox təəssüf doğuran hadisədir. Mənim Mığrı çayına yazdığım isə iki qat təsirdən yaranmışdı. Çünki mən orada qalmırdım, İrəvanda yaşayırdım, arabir anamın yanına gedirdim. Onda görürdüm ki, Mığrı çayının suyu azalır, çay quruyur. Ona görə də yazmışdım ki, sən quruma, mən quruyum, qurban olum, Mığrı çayı. Mən bəlkə də Qərbi Azərbaycandan olan yeganə yazıçıyam ki, bütün Qərbi Azərbaycanı qarış-qarış gəzmişəm. Həmçinin, 16 il teatr direktoru olaraq, bütün Ermənistanı gəzmişəm. Bütün yerlər mənim ürəyimə həkk olunub. İndi də darıxanda o dağları, yolları, tarixi tikililəri, qədim məscidləri, alban abidələrini xatırlayıram. Mığrı və bütöv Zəngəzur mənim həyatımın, düşüncələrimin özəyidir, ona görə oradan ayrıla bilmirəm. Bir şeirimdə dediyim kimi:

*Ozan mahnısında dillənir hünər, -*
*Sazı da, sözü də zəngəzurludur,*
*Tale bəxşişidir, vallah, deyərlər:*
*Allahın özü də zəngəzurludur.*

**- "Burdan min atlı keçdi" kitabınızda dayınız Əli Məmmədovla söhbətinizi xatırlayıram. Daha doğrusu, onun sizə vəsiyyətini... Sizcə, o, sonralar narahatlığında haqlı çıxdımı, yoxsa siz xalqınızın oğlu olaraq xalqın sözünü deməyi bacardınız?**

- Bilirsiniz ki, mən bütün həyatımı Bütöv Azərbaycana və əlbəttə, Qərbi Azərbaycana, onun tarixinə, köçlərə, deportasiyalara, genosidlərə həsr etmişəm. Dayım çox milli adam idi. Ağır xəstə zamanlarında tez-tez ona baş çəkirdim. Son görüşlərimizin birində dedi ki, sənə sözüm var. Elə bildim övladlarını tapşıracaq. Dedi, "Hər başlanğıcın axırı var: mən də köçəcəyəm dünyadan. Sən isə bir az sonra köçüb gedəcəksən Bakıya. Sən öz xalqının oğlusan. Bəs buradakı sənin xalqın deyil? Yunis getdi (Yunus Rzayevi nəzərdə tuturdu), Əli getdi (Əli Həsənov), Hüseyn getdi (Hüseyn Məmmədov), Qəşəm (Qəşəm Aslanov) Moskvadan Bakıya qayıtdı. Cəfər Mehdioğlu (Cəfər Vəlibəyov) qocalıb. Belə getsə, axırı nə olacaq? Bəs bu xalqın sözünü kim deyəcək?"

Düz deyirdi. Dayımın vəfatından 11 il sonra mən də getdim. Dəmiryol vağzalında onun sözlərini xatırlayıb xəcalət çəkdim. Amma bütün həyatımı Bütöv Azərbaycana və Qərbi Azərbaycana həsr etdim. Orada - İrəvanda da, Bakıda da mənim şah mövzum bütöv Azərbaycan və Qərbi Azərbaycan oldu. Bütün düşüncələrim bu mövzu ilə bağlı olub.

**- İrəvanda ikən milliliyinizə görə hansısa təhlükə və ya maneələrlə üzləşirdinizmi?**

- Bəli, çox olub. Ermənilər mənim milli adam olduğumu şübhəsiz bilirdilər. Onlar məni erməni dilinə çox tərcümə edirdilər. Orada erməni dilində kitabım da çıxıb. Ancaq bəzən Zəngəzurdan yazmağıma, müxtəlif şeirlərdə bəzi misralarda Babəkin adını çəkdiyim üçün şeirlərimin erməni mətbuatında çapına, kitabımın nəşrinə maneələr törədilib. Onlar deyirdilər ki, Babək 50 min erməni qırıb. Dedim, dünyada nə qədər erməni var ki, min ildir qırırlar, hələ də qurtarmır. Əlbəttə, belə şeylər çox olub. Məsələn, 34 yaşımda mənə Ermənistan SSR Əməkdar Mədəniyyət xadimi adı verdilər. O vaxt bu, çox böyük ad idi. Son 15 ildə ermənilərə o adı vermirdilər. Çoxları bunu həzm edə bilmirdilər. İrəvan Dövlət Azərbaycan Dram Teatrı çox məşhur, uğurlu teatr olmasına baxmayaraq, ona stasionar bina vermirdilər. Hətta bir dəfə mənə dedilər ki, biz o teatra bina versək, o, ən güclü teatr olar. Bu məsələlərlə bağlı "Burdan min atlı keçdi"də və "İrəvana 7 məktub"da müfəssəl yazmışam.

**- İrəvan Dövlət Teatrının bu günü haqqında danışmaq istərdim. Teatrın indiki vəziyyəti sizi qane edirmi?**

- Ulu Öndər o teatra çox böyük diqqət göstərdi, qayğısını əsirgəmədi. Teatr yerləşdirildi, mədəniyyət sarayı ayrıldı, dövlət teatrı statusunda saxlanıldı. Cənab Prezidentin sərəncamı ilə bina əsaslı təmir olunur, teatr binası kimi qurulur. Cənab Prezidentin sərəncamı ilə teatrın 130 illiyi dövlət səviyyəsində qeyd olundu. İndi 140 illiyinin qeyd olunması ilə bağlı da Prezident sərəncamı var. Hazırlıq gedir, gözlənilir ki, təmirdən sonra yubiley yüksək səviyyədə qeyd olunsun. Teatr uğurla fəaliyyətini davam etdirir, çox maraqlı, istedadlı kollektivi var. Teatr yaşayır və İrəvan Azərbaycan teatrının qədim, çox şərəfli tarixini yaşadır.

**- Son olaraq, istərdim, yaradıcılığınızdakı yeniliklərdən danışaq.**

- Mənə öncədən danışmaq düşmür. Yazıçı hər zaman işləyir, hətta yazmayanda, kağızsız, qələmsiz düşüncələrə dalanda da. Yazıçının düşüncələri də işləməkdir. Görək, nə yazılacaq, nə yazılmayacaq.

***Şahanə MÜŞFİQ***

# YAP Sədrinin müavini Tahir Budaqov MDB müşahidə missiyası qərargahının rəhbəri ilə görüşüb



Yanvarın 31-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Müstəqil Dövlətlər Birliyi (MDB) müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Kozyak və qərargahın üzvü Andrey Adamuşkanı qəbul edib.

Görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Yevgeni Kozyak MDB müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verib. O, MDB-nin Azərbaycanda seçkilərlə əlaqədar geniş müşahidə təcrübəsinə malik olduğunu və 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərinə böyük maraq göstərdiklərini söyləyib. Onun sözlərinə görə, seçkiqabağı vəziyyətlə bağlı paytaxtda və regionlarda aparılan ilkin müşahidələr seçkilərə hazırlığın yüksək səviyyədə olduğunu və bütün namizədlərə bərabər imkanların yaradıldığını göstərir.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın zəngin seçki təcrübəsinə malik olduğunu, qarşıdan gələn prezident seçkilərinin də ədalətli, şəffaf və demokratik keçirilməsi üçün zəruri şəraitin təmin edildiyini bildirib. Hazırda uğurla davam edən seçkiqabağı təşviqat kampaniyası haqqında məlumat verən Tahir Budaqov Azərbaycan vətəndaşlarının seçkilərə böyük maraq göstərdiklərini vurğulayıb.

YAP Sədrinin müavini indiyədək MDB müşahidə missiyalarının ölkəmizdəki fəaliyyətinin önəminə diqqət çəkərək budəfəki missiyaya da uğurlar arzu edib.

# Yevgeni Kozyak: Müşahidələr səsvermə gününə hazırlığın yüksək səviyyədə olduğunu göstərir



"Bizim müşahidə missiyamız Azərbaycan Respublikasında yanvar ayının 17-dən etibarən işə başlayıb. Burada uzunmüddətli müşahidəçilərimiz çalışır. Uzunmüddətli müşahidə missiyası olaraq artıq Azərbaycanın 20-dən çox rayonunda səfərdə olmuşuq və seçki mühiti ilə bağlı yaxından müşahidə aparmışıq".

Bu fikirləri yap.org.az saytına açıqlamasında MDB müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Kozyak deyib.

Y.Kozyak bildirib ki, aparılan müşahidələr səsvermə gününə hazırlıq prosesinin yüksək səviyyədə olduğunu deməyə əsas verir: "Bu günə qədər apardığımız müşahidələrə əsasən 7 fevralda Azərbaycanda prezident seçkilərinin yüksək səviyyədə keçiriləcəyini deyə bilərik. Bizim 170-ə yaxın uzunmüddətli müşahidəçimiz fevralın 7-də bir çox regionlarda olacaq və seçki prosesini yaxından izləyəcəklər. Onu da vurğulamaq istərdim ki, bu, MDB müşahidə missiyasının Azərbaycana artıq 11-ci gəlişidir".

# Fransanın kor "bucağı"...

## Casus qalmaqalı ilə bağlı yeni faktlar...

Fransanın Azərbaycana qarşı formalaşdırmağa çalışdığı təzyiq vasitələri, kampaniyaları ard-arda ifşa edilir, bumeranq effekt alır. Ötən illərdə müəyyən intensivliklə davam etdirilmiş, II Qarabağ müharibəsindən və antiterror tədbirlərindən sonra daha da intensivləşdirilmiş siyasi "təzyiq" kampaniyaları ermənipərəst marağa əsaslanmaqla yanaşı, beynəlxalq hüquq ilə ziddiyyət təşkil edib. Vaxtilə ATƏT-in "Minsk qrupu" vasitəsilə regiona nüfuz etməyə çalışan, başqa sözlə, regionda özünün maraqlarını təmin etmək istəyində olan Fransa sonradan daha fərqli "imkanlar" axtarışına çıxdı - BMT TŞ müstəvisində ardıcıl məğlubiyyətin ardından isə "əlacı" AŞPA üzərindən yeni oyunlar qurmağa çatdı. Amma bu dəfə də "seçilən yol" uğurlu sayıla bilməz. Çünki Fransanın yeni "oyunları" da qeyri-peşəkar və səviyyəsiz ştrixlərlə doludur...

**Makron hakimiyyətinin neokolonialist siması...**

Qeyd edək ki, bir müddət əvvəl həbs edilən casuslardan birinin Fransa vətəndaşı Martin Ryan olması və ötən il dekabrın 4-də Fransa kəşfiyyatının xeyrinə casusluğa görə saxlanılması ilə bağlı məlumatlar yayılmışdı. Yeni məlumatlara görə isə "Kernews.com" mətbuat-radio şəbəkəsi Martin Ryanın valideynlərindən geniş məlumat almış ermənəsilli aktivist-jurnalist Leo Nikolianın müsahibəsini təqdim edib.

Bildirilib ki, Martin Fransada vergilər və müxtəlif standartlar ətrafında problemlərdən yaxa qurtarmaq üçün Azərbaycana gəlib və burada biznes fəaliyyətinə başlayıb. Müsahibədə Martinin biznes fəaliyyəti üçün Bakını seçməsinin əsaslandırılması belə qeyd edilib: "Bakı Qafqazın mirvarisi, türkdilli xalqı olan Azərbaycanın paytaxtıdır. Bu, çox inkişaf etmiş və zənginləşmiş dünyəvi bir ölkədir. Bakı həm də tam təhlükəsizliyi təmin edən bir şəhərdir. Təcavüz, narkotik və oğurluq yoxdur... Beləliklə, bazar araşdırmasından sonra o, Azərbaycanda varlı təbəqənin olması ilə yanaşı, həm də əhəmiyyətli sayda orta təbəqənin formalaşmasını nəzərə alaraq bu ölkədə məskunlaşmaq qərarına gəlib".

O ki qaldı, casusluğa, vurğulanır ki, Fransa xüsusi xidmət orqanları Martin Ryanı Bakıda "ziyarətə gəliblər". Onlar Fransa səfirliyinin iki diplomatı idi (çox güman ki, Azərbaycan tərəfindən ölkədən qovulmuş həmin iki "personan-non-grata" nəzərdə tutulur). Fransanın DGSE-si (xüsusi xidmət orqanı) üzvü olan bu şəxslər özlərini təqdim edir və ondan onlara işləyərək, məlumat verməsini tələb edirlər. Martin imtina etsə də, ona hədə qorxu gəlinib: "Belə olan halda bu adamlar ona cavab verirlər: "Sənin seçimin yoxdur. Tez bir zamanda bir bədbəxt hadisə baş verə bilər, atanızı və ya ananızı düşünün. İntihar edənlər də olur..." Sonra onlar əlavə edirlər: "Biz sizin biznesinizi məhv edə bilərik, çünki Fransadan gələn mallarınızı gömrükdə bloklaya bilərik və sizi Bakıda didərginə çevirə bilərik". Martin ilk dəfə imtina edir. Amma təzyiq canavarın ovunun boynunu dişləməsi kimi daimi olur. Və sonda Martin könülsüz olaraq təslim olur".

Təbii ki, casusluq məsələsindən başqa burada Makron hakimiyyətinin həyasızcasına insanlardan istifadə etmək, şantaj və qorxu altında onları istismar etmək kimi addımları da ifşa olunur. Bu isə neokolonialist Makron hakimiyyətinin əsl simasını bir daha üzə çıxarır.

**Fransanın növbəti beynəlxalq hüququ tapdaması faktı...**

Müsahibədə deyilir: "Martin Ryan Bakıda bütün restoranlar üçün qida məhsulları, souslar hazırlamaq üçün əsaslar paylayır. Bütün səfirliklər paytaxtdadır. İran restoranına diplomatlar və İran ictimaiyyəti gəlir. Amerika restoranına Amerika səfirliyinin əməkdaşları gəlir. Martinin müştəriləri olan restoran sahibləri onun xəbərçisi olurlar. Məsələn, filankəs gəldi, ofisiantın dediyinə görə stolda belə deyilirdi, ola bilər ki, stolun altında mikrofonlar gizlədilib..."

Beləliklə, Makron hakimiyyətinin, Fransa hökumətinin atdığı bu kimi çirkin addımlar yalnız Azərbaycana qarşı deyil, beynəlxalq konvensiyalara da ziddir. Bu dövlət bir daha beynəlxalq aləmə qarşı oynamağa çalışdığı oyunlarla üz-üzə qalıb. Makron hakimiyyəti xarici dövlətlərə qarşı bu kimi əməlləri ilə beynəlxalq hüququ, beynəlxalq konvensiyaları pozur...

AŞPA-da Fransanın nağıllarına və təzyiqinə uyaraq Azərbaycana qarşı səsləndirilən əsassız "təşəbbüslərə" dəstək verən dövlətlər bu faktı müzakirəyə çıxarmalıdır. Fransanın beynəlxalq imici masa arxasında müzakirə predmeti olmalıdır. Bu ölkənin apardığı qeyri-standart siyasi kurs başda təmsil olunduğu Avropa qarışıq bütün dünyaya ziyan vəd edir...

***P.İSMAYILOV***

## Yeni Azərbaycanla 7-ci seçkiyə!
## 6 gün qalır...




# Qarşıda dayanan taleyüklü vəzifələri Liderimiz İlham Əliyevin rəhbərliyi ilə yerinə yetirə bilərik

## Milli Məclisin deputatı, akademik Nizami Cəfərov yap.org.az saytına müsahibə verib



**- Nizami müəllim, ölkəmiz prezident seçkiləri ərəfəsindədir. Seçkilərə "Qalib Xalqın Qalib Lideri!" şüarı ilə qoşulan Yeni Azərbaycan Partiyası hazırda prezidentliyə namizəd cənab İlham Əliyevin seçkiqabağı təşviqat kampaniyasını uğurla davam etdirir. Sizin bu seçki ilə bağlı düşüncələriniz nədən ibarətdir?**

- Prezident seçkilərinin hansı zərurətdən keçirilməsinin səbəbləri ictimaiyyətə açıqlanıb və kifayət qədər ciddi əsasları var. Yəni bu seçkilərin keçirilməsi günümüzün, dövrün tələbidir. Ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin nüfuzu o qədər yüksəkdir ki, indidən seçkinin nəticələri haqqında fikir yürütmək mümkündür. Prezident İlham Əliyevin vətəndaşlar arasında nə qədər böyük hörmət və inama sahib olması həm ölkə daxilində, həm də xaricdə də yaxşı məlumdur. Bunun da çox ciddi əsasları var. Dünyada baş verən mürəkkəb proseslərin fonunda Azərbaycan yüksək dinamika ilə inkişaf edir, ictimai-siyasi sabitlik təmin olunub, ölkədə Lider-xalq birliyi sarsılmazdır. Bütün bunlar cənab İlham Əliyevin həyata keçirdiyi mükəmməl siyasətin nəticəsidir. Azərbaycan Prezidentinin, partiyamızın Sədrinin gördüyü möhtəşəm, əzəmətli işlər nəticəsində Azərbaycan tarixində olmadığı qədər güclü dövlətə çevrilib. Cənab Prezident, həmçinin milli-mənəvi dəyərlərimizin, ana dilimizin qorunması və inkişaf etdirilməsi sahəsində də misilsiz xidmətlər göstərir. Bu barədə faktlar cəmiyyətimizə çox yaxşı məlumdur.

Əlbəttə ki, Prezident İlham Əliyevin 20 illik rəhbərliyinin zirvəsi Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasıdır. Torpaqlarımızın işğaldan azad olunmasında, separatizmə son qoyulmasında Prezidentimizin polad iradəsi müstəsna əhəmiyyət kəsb edir. Erməni işğalına və separatizminə qarşı Azərbaycan xalqının hərbi, ictimai, siyasi mübarizəsində Ali Baş Komandan İlham Əliyevin mövqeyi, bəyanatları, dediyi söz son dərəcə mühüm rol oynadı. Dövlət başçısının timsalında həmişə vaxtında, kifayət qədər mürəkkəb hadisələrin, gərgin, qaynar, ideoloji cəhətdən zəngin proseslərin mahiyyətini böyük analitik istedad və intellektlə ortaya qoyan mövqeyi, başlıcası isə Xalq-Prezident-Ordu birliyi uzun illər davam edən problemə son qoydu. Ali Baş Komandanımızın iradəsi ilk növbədə onunla əlamətdardır ki, bir xalqın taleyini həll edən prosesləri yönəltməklə, milli ruhu mərkəzləşdirib, həqiqətən dəmir yumruğa, sarsılmaz mənəvi qüvvəyə çevirməklə öz tarixi missiyasını uğurla həyata keçirdi.

Azərbaycan xalqı Prezidentimizin bütün sahələr üzrə uğurlu siyasətini görür və daim dəstəkləyir. İndiyə qədər keçirilən seçkilərdə cənab İlham Əliyevin parlaq qələbələr qazanması məhz xalqımızın Ona olan yüksək inamının ifadəsidir. Bu baxımdan, fevralın 7-də keçiriləcək prezident seçkilərində də cənab İlham Əliyevin qələbə qazanacağı şübhəsizdir.

- Prezident İlham Əliyevin siyasətində Türk dünyasında birliyin gücləndirilməsi də əsas istiqamətlərdən biridir. Nəinki Azərbaycan xalqı, eləcə də bütün Türk dünyası cənab İlham Əliyevin bu yöndəki səylərini yüksək dəyərləndirir...

- Prezident İlham Əliyevin siyasətində daim dövlət və milli maraqlarımız qəti şəkildə qorunur. Bu baxımdan, ən təqdirolunası məqamlardan biri dövlətimizin başçısının türk dövlətləri və xalqlarının birliyinin gücləndirilməsi istiqamətində göstərdiyi səylər və təşəbbüslərdir. Çünki qloballaşan dünyada türk dövlətlərinin və xalqlarının birliyi zərurətə çevrilib.

Türk dövlətlərinin, xalqlarının vahid ideya və məqsədlər uğrunda mübarizə aparması, ideoloji-siyasi cəbhədə eyni mövqe nümayiş etdirməsi, erməni lobbisinə qarşı mütəşəkkil mübarizəyə qoşulması Azərbaycanın ən çox səy göstərdiyi məsələlərdəndir. Dövlətimizin tarixi və siyasi baxımdan bizə yaxın olan türk respublikaları ilə ikitərəfli və çoxtərəfli münasibətlərin genişləndirilməsi təşəbbüsləri də məhz bu məqsədə xidmət edir. Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyev türk dövlətləri ilə əlaqələrin daha böyük coğrafi arealda genişləndirilməsinə çalışmaqla bütövlükdə türk dünyasının rəğbət bəslədiyi birləşdirici lider statusunda çıxış edir. Bu əzmkar fəaliyyət bütövlükdə türk xalqlarının dünya siyasətindəki tarixi yerini, beynəlxalq proseslərə təsir imkanlarını və nüfuzunu təmin etməyə yönəlmiş mühüm və tarixi missiyadır. Məhz bu siyasətin nəticəsidir ki, türk birliyi son illər daha da güclənib və bu proses irəliyə doğru getməkdədir. Bu uğurun əldə olunmasında Azərbaycan Prezidentinin müstəsna xidmətləri var.

**- Prezident İlham Əliyevin siyasətində azərbaycançılıq ideologiyasının təşviqi, təbliği və yaşadılması mühüm yer tutur. Bu amilin milli maraqların qorunmasında rolunu necə dəyərləndirirsiniz?**

- Azərbaycan xalqı və dövləti tərəfindən azərbaycançılıq ideologiyasının tətbiqi, müdafiəsi və inkişaf etdirilib təkmilləşdirilməsinin dünya miqyasında çox müxtəlif ideoloji proseslər kontekstində baş verdiyi hamıya məlumdur. Azərbaycan xalqının milli ideologiyasının nəinki danılmaz, hətta mübahisəsiz bir üstünlüyü vardır ki, onun mahiyyətində üç tamamilə humanist dəyər komponenti ifadə olunur. Bunlar etnik mənsubiyyət, dini mənsubiyyət və dünyəvi mənsubiyyətdir. Bu ideologiyada öz əksini tapmış fəlsəfədə, eləcə də onun mənsub olduğu xalqın təfəkküründə nə etnik məhdudluq, nə dini dözümsüzlük, nə də antihumanizm var. Azərbaycan xalqı da dünyanın digər xalqları kimi, müəyyən bir etnik mənşəyə, müəyyən bir dini dünyagörüşünə mənsubdur və bütün digər xalqlar kimi, müasir dünyanın üzvi tərkib hissəsidir. Tarixi taleləri elə gətirib ki, azərbaycanlıların bu gün yalnız beşdən biri müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ona görə də əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş bir siyasətin - dünya azərbaycanlılarının həmrəyliyinin miqyasının genişləndirilməsi siyasətinin müasir mərhələdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi heç bir alternativ qəbul etməyən bir zərurət olub azərbaycançılıq ideologiyasını zənginləşdirən, ona güclü enerji verən, onun məzmununu bütövləşdirən konseptual hadisədir.

Bu gün Prezident İlham Əliyev tərəfindən azərbaycançılıq ideologiyasının daha da gücləndirilməsi nəticəsində ölkəmizdə yaşayan bütün xalqlar bu ideologiya ətrafında sıx birləşib. Dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri cənab İlham Əliyevi dəstəkləyir və Onu öz Lideri olaraq qəbul edirlər. 44 günlük Vətən müharibəsi zamanı biz bunu bir daha aydın şəkildə gördük. Müharibə zamanı bütün xalqların nümayəndələri cənab İlham Əliyevin çağırışı ilə vahid yumruq kimi birləşdilər. Təbii ki, bu amil azərbaycançılıq ideologiyasının nə qədər mükəmməl olduğunu təsdiqləyir.

**- Nizami müəllim, hazırda seçki kampaniyasının təşviqat mərhələsi davam edir. Seçicilərlə keçirilən görüşlərlə bağlı təəssüratlarınız necədir?**

- Yeni Azərbaycan Partiyası "Qalib Xalqın Qalib Lideri!" şüarı ilə cənab İlham Əliyevin seçkiqabağı təşviqat kampaniyası ilə əlaqədar yerlərdə seçicilərlə çoxsaylı görüşlər keçirir. Görüşlər bir daha əminlik yaradır ki, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi birmənalı olaraq xalqın namizədidir. Çünki ölkə Prezidenti, partiyamızın Sədri İlham Əliyev Azərbaycan dövlətçiliyinin daha da gücləndirilməsi, rifah, sabitlik naminə yorulmaz fəaliyyət göstərir.

Milli Məclisin deputatı kimi təmsil etdiyim Ağstafa rayonunda da böyük abadlıq və quruculuq işləri həyata keçirilir. Cənab Prezident dəfələrlə rayonda olub, bir çox iqtisadi, sosial, mədəni obyektlərin açılışında şəxsən iştirak edib. Bu quruculuq prosesi hazırda da davam etməkdədir. Ağstafa əhalisi dövlət başçısının rayonumuza göstərdiyi qayğını yüksək qiymətləndirir və 7 fevral seçkilərində cənab İlham Əliyevə səs verəcəklərini bəyan edirlər. Bütövlükdə isə, Azərbaycanda həyata keçirilən quruculuq işləri göz önündədir. Elə bir bölgəmiz yoxdur ki, orada abadlıq, quruculuq işləri getməsin. Həmçinin sosial-iqtisadi sahədə də böyük nailiyyətlər əldə olunub, bölgələrdə xeyli sayda iş yerləri açılıb, məktəblər, tibb ocaqları, mədəniyyət və idman obyektləri tiklib istifadəyə verilib.

Bütün bunlarla yanaşı, dövlətimizin başçısı ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasını Azərbaycanda yeni dövrün başlanğıcı kimi səciyyələndirib. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə möhtəşəm quruculuq işləri həyata keçirilir.

Bu gün dünyada, o cümlədən regionumuzda mürəkkəb geosiyasi, hətta ideoloji proseslər baş verir. Biz bu prosesləri də yalnız dünya azərbaycanlılarının Lideri İlham Əliyevin rəhbərliyi ilə qələbə və zəfərlərlə başa vura bilərik. Ona görə də mən bütün seçiciləri 7 fevralda fəal olmağa, millətimizin və dövlətimizin maraqlarını hər zaman qoruyan, polad iradəli Liderimiz İlham Əliyevə səs verməyə çağırıram!

## Yeni Azərbaycanla 7-ci seçkiyə!
## 6 gün qalır...

# İlham Əliyev Zəfər seçkilərinin də qalibi olacaq!

## Müsahibimiz Milli Məclisin deputatı İmamverdi İsmayılovdur



**- İmamverdi müəllim, fevralın 7-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Zəfər seçkiləri dövlət suverenliyinin tam bərpası kimi milli prioritetin qətiyyətlə reallaşması və Azərbaycanın yeni tarixi dövrə qədəm qoyması fonunda keçirilir. Bu seçkilərin müasir dövlətçilik tariximizdə yeri və gələcək hədəflərin gerçəkləşməsi kontekstində əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- Müzəffər Lider İlham Əliyevin şəxsi liderlik qabiliyyəti, siyasi əzmi, qətiyyəti, iradəsi nəticəsində ölkəmizin keçdiyi dinamik inkişaf yolundan, iqtisadi müstəqilliyimizin tam təmin olunmasından başlamış, respublikamızın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə, qlobal nüfuzunun yüksəlməsinə qədər bir çox möhtəşəm uğurlara nail olmuşuq. Ərazi bütövlüyümüzün tam bərpa edilməsi, respublikamızın hər yerində konstitusiya quruluşunun bərqərar olunması, 200 illik dövrdə bütün faciələrimizin səbəbi olmuş erməni separatizminin məhv edilməsi isə bu nailiyyətlərimizin zirvə nöqtəsidir. Bununla da xalqımız tariximizin torpaqlarımızın azadlığı uğrunda mübarizə mərhələsini tarixi Zəfərlə layiqincə başa vurdu. Azərbaycanın qarşısında yeni üfüqlər açıldı. Qarşıda isə dövlət və xalq olaraq bizi yeni inkişaf hədəfləri gözləyir, yeni dövrə qədəm qoymağa hazırlaşırıq. İnkişafın yeni hədəflərə uyğun tempdə davamlılığına, yeni milli prioritetlərə doğru ilkin siyasi addımlardan birincisinin məhz prezident seçkiləri olması tamamilə məntiqlidir.

Fevralın 7-də ölkəmizin ictimai-siyasi həyatında çox əlamətdar hadisəyə - Zəfər seçkilərinin keçirilməsinə şahidlik edəcəyik. Təbii ki, fevralın 7-nə təyin edilən prezident seçkiləri ilk növbədə dövlət müstəqilliyimizi əldə etdikdən sonra bütün ölkə ərazisində keçirilən seçkilər kimi xüsusi əhəmiyyətə malikdir. Zəfər seçkiləri kimi tarixi düşəcək 7 fevral seçkilərində iştirak etməklə bütöv Azərbaycanın vətəndaşı olmağın qürurunu yaşayacaqlar. Əlbəttə ki, seçkilərin nəticələri mövcud reallıqları möhkəmləndirəcək və dünya ictimaiyyətinə cəmiyyətimizin möhkəmliyini və onun qonşularımız da daxil olmaqla sülh və təhlükəsizlik şəraitdə yaşamaq istəyini nümayiş etdirəcək. Bu isə həm beynəlxalq hüquq normalarına, həm də ölkəmizin milli maraqlarına tam cavab verir. Nəhayət, bu seçkilər qalib Lider İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinə qalib xalqın verəcəyi qiymət və dəstək baxımından da olduqca vacibdir.

**- Reallıqlar göstərir ki, cənab İlham Əliyev son 20 ildə bütün vədlərini, qarşıya qoyduğu vəzifələri uğurla yerinə yetirib və Azərbaycan xalqının 2003-cü ildə verdiyi qərarın nə qədər müdrik olduğunu isbatlayıb. Ölkəmiz üçün əsrə bərabər son 20 illik dönəmə nəzər salmağınızı xahiş edərdik...**

- Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqətini 2003-cü il seçimlərində nümayiş etdirdi. Xalq Heydər Əliyev kursunu uğurla davam etdirmək iqtidarında olan yeni Liderini - İlham Heydər oğlu Əliyevi özünə rəhbər seçdi. İlham Əliyevin əvvəlki dövrdə çalışdığı rəhbər vəzifələrdə özünü doğrultması, ən başlıcası isə Ümummilli Lider Heydər Əliyev dühasından bəhrələnərək novator səviyyəli siyasətçi kimi yetişmək imkanlarını səfərbər etməsi onu qısa bir zamanda Azərbaycanın siyasi səhnəsində önə çıxarmışdı.

Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz Liderinə inam və etimadı son dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbələr qazandı. Yeni əsrin yeni Lideri İlham Əliyev 20 ildən artıqdır ki, Azərbaycanı bu dövlətin qurucusu Ulu Öndər Heydər Əliyevin yolu ilə inamla irəli aparır, xalqımıza tarixi uğurlar qazandırır.

2003-cü ildən ölkədə yeni sosial-iqtisadi inkişaf modelinə keçidə start verildi. Bu model çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi və rəqəmsallaşdırılması, özəl sektorun rolunun gücləndirilməsi və investisiyaların cəlb olunması üçün əlverişli mühitin yaradılması, sosial məsələlərin həlli üzrə sürətli addımlar atıldı. Dövlət başçısının həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyasına əsasən ölkənin regionlarının davamlı inkişafının təmin olunmasını, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsini və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yarandı. Cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan nəinki dünyanın ən dinamik inkişaf edən dövləti kimi tanındı, həm də daha sürətlə dəyişən ölkə imici qazandı.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş enerji strategiyasının uğurla həyata keçirilməsi Azərbaycanın əldə etdiyi iqtisadi uğurların başlıca səbəbi oldu, ölkəmizin güclü enerji infrastrukturu təşəkkül tapdı və onun qlobal əhəmiyyəti daha da artdı. Nəticədə ölkəyə sabit maliyyə axını təmin edildi, ölkənin valyuta ehtiyatları dəfələrlə yüksəldi, çoxsaylı sosial-iqtisadi proqramların icrası təmin edildi. Bu gün Azərbaycan regionun aparıcı iqtisadi gücünə çevrilib. Azərbaycanın təşəbbüskarı olduğu və tərəfdaşları ilə birgə həyata keçirdiyi bir sıra irimiqyaslı layihələr təkcə bizim deyil, qonşu regionların da inkişafına mühüm töhfəsini verir. Bu layihələr arasında Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatında başlıca rol oynamaq qabiliyyətinə malik Cənub Qaz Dəhlizi kimi nəhəng layihə yer alır. Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəmərləri tikilib istismara verilib. Bundan başqa, iki nəqliyyat meqalayihəsini - Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisini və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi çərçivəsində işləri xatırlatmaq lazımdır.

Ölkə rəhbərinin sosial sahəyə xüsusi qayğısı ötən 20 ildə dövlətimizin sosial siyasətinin ildən-ilə gücləndirilməsinə, dayanıqlı və əhatə dairəsi daim genişlənən etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan verib. Sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əhalinin məşğulluğunun təminatıdır və ölkədə yeni iş yerlərinin açılması, məşğulluq imkanlarının artırılması davamlı xarakter alıb. Bu günə qədər həyata keçirilmiş uğurlu sosial siyasətin ardıcıllığı və dönməzliyi ölkədə yoxsulluq səviyyəsinin azaldılmasına və əhalinin sosial rifah səviyyəsinin yüksəlişinə səbəb oldu.

Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində bir çox islahatların müəllifidir. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini - "ASAN xidmət" mərkəzlərini buna misal göstərmək olar. "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsinə və vətəndaş məmnunluğunun daim yüksək səviyyədə saxlanılmasına nail olunub. 2018-ci ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi - DOST Agentliyi yaradılıb. DOST Agentliyinin missiyası əhalinin rifah halının yaxşılaşdırılmasından, həssas qruplara dövlət qayğısının artırılmasından və vətəndaş məmnunluğunun təmin etməkdən ibarətdir.

Bu dövrdə Azərbaycanın xarici siyasət sahəsində qazandığı uğurlar onu beynəlxalq siyasi sistemin ən fəal subyektlərindən birinə çevirdi. Azərbaycan özünün və daxil olduğu regionun təhlükəsizlik maraqlarını qoruya bilmək, cürbəcür təhdid və avantüraləri zərərsizləşdirmək bacarığını nümayiş etdirdi və nəticədə dünya birliyində etibarlı tərəfdaş nüfuzu qazandı. 2003-cü ildən bəri Azərbaycan dünyada həm də mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınıb. Bakı "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula 1" yarışlarına sahibliyi edib. Ötən dövr Azərbaycanda bütün sahələrin inkişaf etməsi ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunub. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrlik edib. Təşkilata sədrlik müddətinin daha bir il artırılması Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir. Bu gün Azərbaycan beynəlxalq mövqeyi tarixində heç zaman olmadığı qədər güclü və sarsılmazdır. Eyni zamanda, regional müstəvidə göstərilən təşəbbüslər, həyata keçirilən iri layihələr Azərbaycanı regionunun lider dövlətinə çevirdi.

Ötən 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordumuzun daha da gücləməsi, döyüş qabiliyyətinin artırılması, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində atılan addımların uğurlu nəticələri özünü 44 günlük İkinci Qarabağ müharibəsində nümayiş etdirdi. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Ordusunu dünyanın ən güclü 50 ordusu sırasına yüksəltdi. Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq şanlı Qələbəyə imza atdı. Ərazi bütövlüyümüzün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin əsrə bərabər 20 illik fəaliyyətin Zəfər zirvəsidir. Ulu Öndərin Qarabağla bağlı vəsiyyətini böyük məharətlə gerçəkləşdirən qalib Lider itirilmiş torpaqlarımızı geri qaytardı və suverenliyini qətiyyətlə bərpa etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Zəfər xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu gün qalibiyyət rəmzi olan üçrəngli bayrağımız Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Şuşada, Laçında, işğaldan azad edilmiş bütün torpaqlarımızda dalğalanır. Hazırda Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, bərpa edilir, soydaşlarımızın gələcəkdə daha rahat yaşayışı üçün bütün şərait yaradılır.

**- İmamverdi müəllim, Azərbaycanı daha işıqlı sabahlara aparmaq, zəfərlərimizin davamlılığını təmin etmək üçün seçicilərə hansı çağırışları etmək istərdiniz?**

- Hər bir uğurlu addım üçün stimul olmalıdır. Bu stimul, təbii ki, xalq-iqtidar birliyinin sarsılmazlığıdır. Azərbaycandakı ictimai-siyasi sabitlik mühiti, vətəndaşların dövlətə, dövlət rəhbərliyinin həyata keçirdiyi islahatlar kursuna dəstəyi Azərbaycanın milli dövlətçilik tarixində yeni uğurlar üçün zəmin yaranır. Uğurlar biri-birini əvəzlədikcə sabaha inam daha da artır, yeni-yeni hədəflər gündəmə gəlir, onların gerçəkləşdirilməsi üçün səylər göstərilir. Reallıqlar göstərir ki, Azərbaycan milli dövlətçilik tarixinin heç bir mərhələsində indiki qədər qüdrətli olmayıb. Bu inkişafı, sabitliyi, tərəqqini təmin edən amil ölkəmizdə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Ulu Öndər Heydər Əliyevin dövlətçilik strategiyasına sadiq qalan qalib Lider qərarları ilə ümumxalq sevgisini qazandı. Azərbaycanı yenidən dünyaya yeni imicdə, qalib libasında və ləyaqət zirvəsində təqdim edən Liderə xalqımız yüksək sevgi və sədaqət nümayiş etdirir. Bu Xalq-Lider birliyi ölkəmizin hərtərəfli və davamlı inkişafının təməlidir. Bütün bunlara görə Azərbaycan xalqının tərəddüdsüz və alternativsiz seçimi məhz cənab İlham Əliyevdir.

Müdrik, qətiyyətli, cəsarətli Azərbaycan xalqı hər zaman seçim məqamı yetişəndə doğru qərar verməyi bacarıb. Bizim xalqımız müdrik xalqdır, bunu dəfələrlə seçkilərdə də sübut edib. Əminliklə deyə bilərəm ki, bu dəfə də xalqımız müdrik qərar verəcək və doğru seçim edəcək. Təbii ki, bu doğru seçim də bizi dünyada qalib xalq kimi tanıdan, nəinki Azərbaycanın, eyni zamanda, bütün Türk dünyasının qürur mənbəyinə çevrilən Qarabağ Zəfərinin memarı, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevə növbəti müddət üçün etimadın göstərilməsidir. Xalqımız bu etimadı göstərməklə yeni dövrdə bizi gözləyən yeni uğurlara səs verərək ölkəmizin gələcəyini etibarlı Liderə əmanət edəcək. Qalib xalqımızın səsi və iradəsi qalib Lideri Zəfər seçkilərinin də qalibi edəcək.

# Samir Cəfərov: Gələcəyimizin daha parlaq olması üçün cənab İlham Əliyevə səs verək!



"Prezident İlham Əliyev məni Xalq artisti Fəxri adı ilə təltif edib. Bir Xalq artisti olaraq üzümü xalqıma tutub müraciət edirəm. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Bu, çox gözəl bir ifadədir".

Bu fikirləri YAP İdarə Heyətinin üzvü, Xalq artisti Samir Cəfərov bildirib.

S.Cəfərov qeyd edib ki, dünənimiz bəllidir, bu günümüz daha möhtəşəmdir. Bu reallıq hamıya, o cümlədən dünyaya məlumdur: "Gələcəyimizin daha da parlaq, gözəl, işıqlı və etibarlı əllərdə olması üçün Qarabağın xilaskarı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə səs verək ki, Azərbaycan dünya dövlətləri sırasında daha da möhkəm olsun. Yaşasın Yeni Azərbaycan!".

# Bəxtiyar Xanızadə: Qalib Liderimizin ətrafında sıx birləşməliyik

"Mən nə tarixçi, nə də siyasətçiyəm. Bir teatr işçisi, bir azərbaycanlı kimi düşünürəm ki, hər adam öz sahəsində öz bacardığı işlə məşğul olmalıdır, öz sahəsinin peşəkarı olmalıdır".

Bu fikirləri Xalq artisti Bəxtiyar Xanızadə bildirib.

B.Xanızadə 44 günlük Vətən müharibəsi dövründə, demək olar ki, televiziya qarşısından ayrılmadığını, Prezident İlham Əliyevin bütün çıxışlarını izlədiyini qeyd edib: "Ali Baş Komandanımızın nə qədər ağır, nə qədər məsuliyyətli bir işin arxasında böyük əzəmətlə durduğunun şahidi oldum. Qələbəyə inamım dəfələrlə artdı. Bu tarixi Qələbə sadə bir Zəfər deyildi. Ali Baş Komandan təkcə bir Ermənistana yox, həm də bu işğalçı dövlətin çox güclü havadarlarına qalib gəldi".



Xalq artisti vurğulayıb ki, Prezident İlham Əliyev xalqa verdiyi bütün vədləri yerinə yetirib: "Dövlətimizin başçısı sözünün arxasında gerçək əməl nümayiş etdirib və göstərib ki, işinin peşəkarıdır. Biz isə hər zaman qalib Liderimizin ətrafında sıx birləşməli və qarşıdan gələn prezident seçkilərində Ona səs verməliyik".

# Yeni Azərbaycanla 7-ci seçkiyə!
# 6 gün qalır...

## "Müasir Azərbaycan iftixar mənbəyimizdir!"



2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Pirallahı rayonunda seçicilərlə görüş keçirilib.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib.

Görüşdə YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov, partiyanın İdarə Heyətinin üzvü Əfsun Sucayev və təşviqat qrupunun üzvü Fərhad Əliyev çıxış ediblər. Bildirilib ki, görülən işlərin, həyata keçirilən islahatların davam etməsi ilə dövlətimiz daha da inkişaf edəcək, daha böyük nailiyyətlərə imza atacaq. Buna görə seçicilər seçkilərdə fəal olmalı və dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi kursunun davam etməsinə səs verməlidirlər.

Natiqlər seçiciləri 7 fevral prezident seçkilərində fəal iştirak etməyə və qalib xalqın qalib Lideri İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər isə səsvermə günü seçki məntəqələrinə gedərək Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər. "Müasir Azərbaycan iftixar mənbəyimizdir!",- deyə vurğulanıb.



Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

## Xalq-Lider birliyi Azərbaycana yeni qələbələr bəxş edəcək





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Səbail rayonunda seçicilərlə növbəti görüş keçirilib.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Görüşdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, təşviqat qrupunun üzvləri Səyyarə İbadullayeva, Zaur Məmmədov, Təranə Kərimova, Turan Kərimli və Altay Babaşov çıxış ediblər.

Müzəffər Ali Baş Komandanın siyasəti nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüzün tam bərpa olunmasından sonra keçiriləcək Zəfər seçkisinin əhəmiyyətindən danışan natiqlər bildiriblər ki, gələcək inkişaf konsepsiyasının uğurla icrası üçün növbəti dövrdə də cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etməsi olduqca zəruridir. "Xalq-Lider birliyi Azərbaycana yeni qələbələr bəxş edəcək",- deyə vurğulanıb.

Seçicilər də bildiriblər ki, onların seçimləri dəyişilməzdir və 7 fevralda yekdilliklə seçki məntəqələrinə gedərək Zəfərimizin memarı cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

## "İnkişafımız davam edəcək!"





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Şəki rayonunda şəhid ailələrinin üzvləri, müharibə əlilləri və müharibə iştirakçıları, eləcə də qadın seçicilərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşlərdə YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov, Vətən müharibəsi şəhidi Səbuhi İsgəndərlinin anası Gülnarə Mustafayeva, şəhid Elməddin Məmmədovun atası Mikayıl Məmmədov, Vətən müharibəsi qazisi Mehman Əbdürəyimov, təşviqat qrupunun üzvləri Rafik Səmədov, Anar Nağıyev, Ziyafət Xasıyeva və Pərvanə İskəndərova çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin siyasi varisi İlham Əliyevin 20 il əvvəl Azərbaycan Prezidenti seçilməsi xalqımızın və ölkəmizin taleyində yeni inkişaf mərhələsinin başlanğıcı olub. Bu dövrdə cəmiyyətimizin həyatında inqilabi dəyişikliklər baş verib. Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı sağlam və möhkəm təməl üzərində Prezident İlham Əliyevin inşa etdiyi güclü və müasir Azərbaycan bir çox taleyüklü problemləri geridə qoyaraq, gələcəyə doğru inamla addımlayan ölkələr sırasında öz layiqli yerini tutub. Prezident İlham Əliyevin siyasətinin zirvəsini isə torpaqlarımızın erməni işğalından azad edilməsi təşkil edir. "İnkişafımız davam edəcək!",- deyə vurğulanıb.

Natiqlər seçiciləri seçkilərdə fəal iştirak etməyə, qalib xalqın qalib Lideri İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər də öz növbəsində seçkilərdə fəal iştirak edərək cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Görüş Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb.

## Ölkəmizin işıqlı sabahına səs verək!





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 30-da Xəzər rayonunun Şüvəlan qəsəbəsində seçicilərlə, o cümlədən şəhid ailələri, müharibə əlilləri və veteranları ilə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, sonra "Qalib xalqın, qalib Lideri-Prezident İlham Əliyev" adlı videoçarx nümayiş olunub.

Görüşdə YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, YAP Veteranlar Şurasının üzvü Sudeyf İmamverdiyev, təşviqat qrupunun üzvləri Zaur Hüseynov və şəhid anası Məleykə Məcidova çıxış ediblər. Çıxışlarda dövlətin şəhid ailələrinə və qazilərə, müharibə veteranlarına diqqət və qayğısından bəhs olunub. Natiqlər həmçinin seçiciləri 7 fevral seçkilərində bütün seçiciləri ölkəmizin işıqlı sabahına -qalib Lider İlham Əliyevə səs verməyə çağırıblar.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

## "Qalib Azərbaycanın vətəndaşı olmaq qürurvericidir!"



2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Ağcabədidə seçicilərlə növbəti görüş keçirilib.

Tədbir Dövlət Himninin səslənməsi ilə başlayıb.

Görüşdə YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov və təşviqat qrupunun üzvü Əli Əliyev çıxış ediblər. Natiqlər fevralın 7-də keçiriləcək prezident seçkilərində fəal iştirak etmək və qalib xalqın qalib Lideri olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs vermək üçün seçiciləri çağırış ediblər.



Seçicilər isə fevralın 7-də qalib Lider, xalqımıza Zəfər bəxş edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər. "Qalib Azərbaycanın vətəndaşı olmaq qürurvericidir!",- deyə qeyd olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

## "İnamımız sarsılmaz, mövqeyimiz dəyişməzdir!"






2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində YAP Xızı rayonunda ziyalılar, ağsaqqallar, şəhid ailələrinin üzvləri, müharibə əlilləri və iştirakçıları ilə görüş keçirilib.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra cənab İlham Əliyevin fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olunub.

Görüşdə YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Milli Məclisinin deputatı Müşfiq Məmmədli, təşviqat qrupunun üzvləri Fərrux Haqverdiyev, Xudayət Cabbarov və Həcər Rəsulova çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, ölkəmizdə prezident seçkilərinin keçirilməsini şərtləndirən mühüm amillərdən olan ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin, ordumuzun gücünün, qüdrətinin, xalqımızın Vətən, torpaq sevgisindən qaynaqlanan birliyinin, həmrəyliyinin nəticəsidir. Tarixi Zəfərimizin memarı cənab İlham Əliyevə xalqın sevgisi sonsuzdur.

Natiqlər seçiciləri dövlətimizin dinamik inkişafını təmin edən, ölkəmizi uğurdan uğura aparan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

Seçicilər fevralın 7-də qalib xalqın qalib Lideri İlham Əliyevə səs verəcəklərini bildiriblər. "İnamımız sarsılmaz, mövqeyimiz dəyişməzdir!" ,- deyə vurğulanıb.

# Yeni Azərbaycanla 7-ci seçkiyə! 6 gün qalır...

## Son 20 ilin möhtəşəm uğurlarına əsaslanaraq... “Cənab İlham Əliyevə səs verəcəyik!”



2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Qaradağ rayonunun Səngəçal qəsəbəsindən olan seçicilərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra cənab İlham Əliyevin 20 illik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Görüşdə çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, Milli Məclisin deputatları Aydın Hüseynov və Səbinə Xasayeva, təşviqat qrupunun üzvləri Sahibə İlyasova, Leyla Əsədullayeva, Lütvəli Sultanov, Ceyhun Fərzəliyev, Lalə Nağılı və başqaları çıxış ediblər. Çıxışlarda qeyd edilib ki, Prezident İlham Əliyevin siyasətinin zirvəsində tarixi Zəfər nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası dayanır.

Seçicilər isə son 20 ilin tarixi uğurlarına əsaslanaraq Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.



## “Qalib Liderimizə inanır, güvənir və böyük etimad bəsləyirik”





2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin təşviqat kampaniyası çərçivəsində YAP Gənclər Birliyinin təşkilatçılığı ilə gənclərlə növbəti görüş keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən işlər və əldə olunmuş nailiyyətləri əks etdirən videoçarx nümayiş etdirilib.

Görüşdə çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatı Elnur Allahverdiyev və YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu gənclər siyasəti sayəsində yüksək potensiala malik vətənpərvər Azərbaycan gəncliyinin formalaşdığını diqqətə çatdırıblar. 7 fevral seçkilərinin gənclərin yeni uğurlar və qələbələr naminə cənab İlham Əliyevə qətiyyətli dəstəyinin daha bir ifadəsi olacağına əminlik bildirilib. “Azərbaycan gəncliyi sözü imzası qədər dəyərli olan qalib Liderimizə inanır, güvənir, böyük etimad bəsləyir”,- deyə vurğulanıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə sona çatıb.

## “Yeni qələbələr qazanmaq əzmindəyik!”





2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Culfa rayonunda seçicilərlə görüş keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşlərdə YAP Culfa rayon təşkilatının sədr müavini Ədalət Əhmədov, təşviqat qrupunun üzvləri - Naxçıvan MR Ali Məclisinin deputatı Fərəc Fərəcov, Mübariz Allahverdiyev, Hikmət Məmmədov, Şahmar Məmmədov, Əli Səfərov, Şəfiqə Əliyeva və Rəqsanə Qurbanova çıxış ediblər. Bildirilib ki, ölkəmiz davamlı və dayanıqlı inkişaf edən ölkəyə çevrilib. Seçkilərdən sonra da işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı bərpa və yenidənqurma işlərinin davam etdirilməsi, təhlükəsizliyin təmin olunması, müasir ordu quruculuğu, əhalinin rifah halının yüksəldilməsi və s. məsələlər ölkəmizdə həyata keçirilən siyasətin mühüm istiqamətləri olacaqdır. “Müzəffər Liderimizlə yeni qələbələr qazanmaq əzmindəyik!”,- deyə əminliklə ifadə olunub.

## “Qalib Liderimizə səs vermək davamlı inkişafı dəstəkləməkdir”






2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Samux rayonunda seçicilərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov, YAP Təftiş Komissiyası, Milli Məclisin deputatı Naqif Həmzəyev, təşviqat qrupunun üzvləri Mirzəmməd Orucov, Namiq Cəfərov, Gəray Bayramov, Mehman Əliyev, Məhəbbət Həsənova və İlahə Qurbanova çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycan xalqını və cəmiyyətini arzularına qovuşdurur. Onun liderliyi ilə ötən 20 ildə tarix, indiki və gələcək nəsillər qarşısında misilsiz xidmətlərə imza atılıb. Sosial-iqtisadi inkişaf, təhsil, mədəniyyət, ümumən dövlət həyatının bütün sahələrində parlaq nailiyyətlər əldə olunub. Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz və hörmət qazanıb, söz sahibinə çevrilib.

Natiqlər seçiciləri 7 fevralda keçiriləcək prezident seçkilərində fəal iştirak etməyə və qalib Lider İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər isə bildiriblər ki, qalib Lider İlham Əliyevə səs verərək ölkəmizin davamlı inkişafını dəstəkləyəcəklər.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

## Azərbaycan Zəfər marşındadır!





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Ağdaş rayonunda gənclər, o cümlədən idmançılarla, eləcə də Eymur kəndində seçicilərlə görüş keçirilib.

Görüşlərdə YAP Ağdaş rayon təşkilatının sədr müavini İsa Eminov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov və təşviqat qrupunun üzvləri Qalib Həsənov və Rüfət Məmmədov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, bütöv Azərbaycanda ilk dəfə keçiriləcək 7 fevral prezident seçkilərinə Yeni Azərbaycan Partiyası “Qalib xalqın qalib Lideri!” şüarı ilə gedir. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan Zəfər marşındadır. Natiqlər seçiciləri 7 fevral prezident seçkilərində fəal iştirak etməyə və qalib xalqın qalib Lideri olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüş zamanı çıxış edən seçicilər fevralın 7-də seçki məntəqələrinə gedərək xalqımıza Zəfər təntənəsi bəxş edən Müzəffər Ali Baş Komandan İlham Əliyevə səs verəcəklərini diqqətə çatdırıblar.

## “Qalib Liderimizlə və qüdrətli dövlətimizlə fəxr edirik”





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Salyan rayonunda qadın seçicilərlə görüş keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Salyan rayon təşkilatının sədri Elmar Əhmədov, təşviqat qrupunun üzvləri Yaqut Ələsgərova, Fərqanə Cəbrayılova və Sehranə Rzayeva çıxış ediblər. Çıxışlarda böyük zəfərlərə doğru inamla və qətiyyətlə irəliləyən və doğma Vətənimizi işıqlı gələcəyə aparan dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha böyük inkişafı hədəfləyən siyasi kursdan və dövlət idarəçiliyindən danışılıb. Eyni zamanda, qadınların cəmiyyət həyatında rolundan, dövlətimizin inkişafında töhfələrindən bəhs ediblər.

Natiqlər verilən bütün vədlərin real həyatda öz əksini tapdığını xatırladaraq bütün qadın seçiciləri Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

Görüşdə iştirak edən seçicilər bildiriblər ki, fevralın 7-də keçiriləcək seçkilərdə xalqımızın əvəzsiz lideri İlham Əliyevə səs verəcəklər. “Qalib Liderimizlə və qüdrətli dövlətimizlə fəxr edirik”,- deyə vurğulanıb.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# London nəşri: Azərbaycan ərəb dünyası üçün mühüm ölkədir!

*Günel ABBAS*

Azərbaycan diasporunun tarixi bir çox ölkələrlə müqayisədə çox da qədim deyil. Soydaşlarımızın xarici ölkələrə köçməsi 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra cümhuriyyətin qurucularının Türkiyəyə, Avropa ölkələrinə və Amerikaya getməsi ilə başlayıb. Azərbaycanlıların növbəti köçü Sovet İttifaqının dağılmasından və ölkəmizin müstəqillik əldə etdikdən sonrakı illərə təsadüf edir. Bu proses əslində, müxtəlif hallarda hələ də davam edir. Qloballaşma dövründə, dünyada miqrasiya proseslərinin sürətləndiyi bir dövrdə azərbaycanlıların yaşamaq və işləmək üçün dünyanın müxtəlif ölkələrinə getməsi prosesin təbii bir hissəsidir.

Qeyd edək ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanma prosesi 1993-cü ildə başlayıb. Bu proses 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi və 2002-ci ildə Dövlət Diaspor Komitəsinin yaradılması ilə davam edib. Ölkəmizin diaspor siyasətinin həyata keçirilməsi prosesləri bu gün ölkə rəhbərliyinin uğurlu fəaliyyəti çərçivəsində davam edir. Soydaşlarımızın təşkilatlanması, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması, ölkəmizin tanıdılması istiqamətində bir çox ciddi işlər görülüb.

Aparılmış məqsədyönlü işlər nəticəsində bu gün Avropada, Şimali və Cənubi Amerikada, MDB məkanında və bir çox ölkələrdə, o cümlədən Özbəkistan, Qırğızıstan, Norveç, Niderland, Almaniya, İspaniya, İtaliya, Belçika, Bolqarıstan, Çexiya, Finlandiya, Estoniya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası, Türkiyə və ABŞ-da 460-dan çox Azərbaycan icmaları yaradılıb. Yeni Azərbaycan icma və birliklərinin təsis edilməsi Azərbaycanın çağdaş diaspor quruculuğu işinin uğurları kimi qiymətləndirilməyə layiqdir.

Bunun bir nümunəsidir ki, dünya mediasında Azərbaycanla tərəfdaşlıq, birgə əməkdaşlığa dair mütəmadi olaraq müxtəlif məqalələr dərc olunmaqdadır. Yeri gəlmişkən, bu yaxınlarda Səudiyyə Ərəbistanının Londonda nəşr edilən “Riyad Herald” qəzetində “Azərbaycan ərəb dünyası üçün mühüm ölkədir” sərlövhəsi altında geniş redaksiya məqaləsi dərc olunub.

Məqalədə diqqətə çatdırılıb ki, bir neçə il əvvəl Britaniya Parlamentində Azərbaycanda investisiya perspektivləri ilə bağlı keçirilən tədbirin təşkilatçıları ərəb mediasına xüsusi diqqət yetirərək, ərəb diaspor mətbuatının nümayəndələrini, həmçinin Britaniya siyasətçilərini, investorları və jurnalistləri dəvət etmişdi. “Etiraf etmək lazımdır ki, bu tədbir bizim üçün həlledici an oldu. Uzun illər beynəlxalq ictimaiyyət, o cümlədən ərəb dünyası keçmiş sovet respublikalarına oxşar dövlətlər qrupu kimi yanaşırdı. Qərb mediasının bu respublikalara etinasız yanaşması, ərəb siyasətçiləri və jurnalistlərinin onlara marağının olmaması Çindən Qafqaza qədər uzanan bu respublikaların əhəmiyyətini anlamağa mane olurdu. Həmin tədbirdə Prezident İlham Əliyevin qızı Leyla Əliyeva çıxış edərək ölkəsinin potensialı və onun sərmayədarlara verdiyi güzəştlərdən danışdı. Bu kimi faktlar Azərbaycan haqqında təsəvvürləri yenidən nəzərdən keçirməyə vadar etdi”, -deyə yazıda diqqətə çatdırılır.

Azərbaycanın İslam dünyasında ən dünyəvi, eyni zamanda, dini dəyərlərə yüksək qiymət verən ölkə olduğu qeyd edilən məqalədə vurğulanır ki, türk kimliyi azərbaycanlıların mentalitetində əsas yer tutur. Məhz Türkiyə ilə yaxınlıq azərbaycanlılar üçün prioritetdir. Ərazilərin erməni işğalından azad edilməsində də bu amil mühüm rol oynadı.

Məqalədə qeyd olunur ki, Yaxın Şərq regionunda baş verən son hadisələr fonunda Körfəzin ərəb ölkələrinin Azərbaycanla əlaqələri daha da möhkəmlənir. “Ərəb ölkələri üçün əməkdaşlığın coğrafiyasının genişləndirilməsi Azərbaycanın timsalında mühüm və konkret fəaliyyət kursudur. Bu ölkə zəngindir və böyük potensiala malikdir. BƏƏ-Azərbaycan münasibətləri modeli çox aktual bir nümunədir. İki ölkə bir çox sahələrdə sıx əlaqələr saxlayır. Bu dövlətlərin liderləri - Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan və Prezident İlham Əliyev son bir il ərzində üç dəfə görüşüblər. BƏƏ Prezidentinin Bakıya son səfəri zamanı strateji və iqtisadi koordinasiya məsələləri müzakirə olunub, regionda sülhün təmin edilməsi üçün birgə fəaliyyətə sadiqlik vurğulanıb, əməkdaşlığa dair mühüm sənədlər imzalanıb”, -deyə qəzetin yazısında vurğulanıb.

Redaksiya məqaləsində Azərbaycanın Səudiyyə Ərəbistanı, Küveyt və digər ərəb ölkələri ilə əlaqələrinin inkişafından da bəhs edilib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır**

# Şuşaya getmişdim...

## Jurnalistin yol düşüncələri

Çoxdan idi ki, səhər tezdən bir yerə səfər etmirdim. Arzu qanadlarında, Medianın İnkişafı Agentliyinin MEDİA təşkilatçılığı ilə Şuşa səfərinə sevindim. Səhərin soyuğu, alatoranlıq heç vəchlə xoş ovqatımıza mane olmurdu. Ona görə ki, doğma Qarabağımızın baş tacı Şuşaya yol alacaqdıq. Bir azdan qış günəşi çıxacaq, qırmızı şəfəqləri yolumuzu işıqlandıracaqdı. Zəngin mədə-




niyyət - elm, sənət, incəsənət, musiqi beşiyi Zəfər şəhəri Şuşanı ziyarət etmək, bulaqlarından su içmək, hər qarış torpağına müqəddəs şəhidlərimizin ruhu hopmuş müstəqil Azərbaycan Respublikasının alınmaz qalasını görmək çoxdankı arzum idi. Düzdür, düz 40 il əvvəl Ağdamın Şahbulağına - qardaşım Ənvərin yanına anamla gedəndə həmin yerlər Şuşaya yaxın idi. Arzulamışdım, gedə bilməmişdim. İndi gedirəm.

Bakı, Gəncə və Lənkəran şəhərlərindən də jurnalistləri Şuşaya aparmaq üçün 3 avtobus yola düşmüşdü. Dan yeri söküləndən sonra Füzuli rayonunun Qaraxanbəyli kəndinə çatdıq. Bu, həmin Qaraxanbəylidir ki, işğal dövründə Ohanyan səddi və neytral zona burada yerləşirdi. Təsəvvür edin ki, Azərbaycan torpağında düşmən səddi... Düşdük, baxdıq. Televiziya ekranlarından gördüyümüz viranə evlər, dağıdılmış kəndlər də buradan başlanır. Bir az qabaqda, yolun sağında qəbiristanlıqdakı məzarlara qırmızı lentlər bağlanmışdı. Yəni ki, sakinlər doğmalarının məzarlarını ziyarət ediblər. Bundan qabaqkı Alxanbəyli kəndindəki postda polis işçiləri sənədlərimizi yoxlayıb, bizi Şuşa səmtinə getməyə xoş niyyət göstərdilər.

Qrupumuzun rəhbəri, MEDİA nümayəndəsi Elşən Ağayev bu yerlərdə bir neçə dəfə olduğundan Qarabağın əbədi tarixi, rayonları, yaşayış məskənləri, 44 günlük Vətən müharibəsində işğaldan azad edilmiş yerlər haqqında məlumatlar verir, suallarımızı cavablandırırdı. Elşən müəllim Qaraxanbəylinin Füzulinin işğaldan azad edilmiş birinci kəndlərindən olduğunu, ermənilərin Ohanyan səddi deyilən istehkam müzəffər ordumuzun gücüylə dağıdılaraq ərazini düşməndən azad olunmasından danışdı. Strateji və sosial obyektlər, qəbiristanlar, qapıları, divarları sökülmüş binalar, yol-izi itmiş cığırları belə tanımaq olmur. Düşmən elə bir vandallıq edib ki, Xerosima onun yanında toya-bayrama getməlidir.

Füzuli şəhərinə çatanda adamın ürəyi açılırdı. Şəhər müasir standartlara uyğun yenidən bərpa olunur. İrəlilədikcə abad yolları görürsən. Yolun hər iki tərəfində quruculuq işləri görülür, ucu-bucağı görünməyən torpaqlarda müasir traktorlar işləyir, taxıl əkilirdi. Adamın sevincdən köksü çağlayırdı... Bu yerdə şəhidlərimizə Allahdan rəhmət diləyirik, qazilərimizə cansağlığı arzulayırıq, hamımız bir ağızdan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevə dualar edirik. Məhz möhtərəm Prezidentimizin Sərəncamı ilə inşa edilmiş 101,5 kilometrlik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu ilə Şuşaya irəliləyirik. Bu yol Zəfər yoludur. Azərbaycan ordusunun xüsusi təyinatlılarının Şuşanı işğaldan azad etmək üçün keçdiyi meşələrdən, dərin dərələrdən, sıldırım qayalardan çəkilib bu yol...

“Kolin” şirkətinin və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkçiləri tikinti işlərini sürətlə və dünya standartlarına uyğun yerinə yetirirlər. Layihəyə əsasən çətin relyefə malik olan dağ yerlərində, dolaylarda körpü və tunellərin bünövrəsi qoyulur. Belə ki, təzə yolun uzunluğu 17 kilometrə yaxın qısalaraq 84,6 kilometr olacaqdır. Tunellərin ümumi uzunluğu təxminən 3 kilometr təşkil edəcək, Şuşa şəhərinə gediş-gəliş daha rahat olacaqdır. Elşən müəllim sıldırım qayaların ortasında ulu keçmişimizin yadigarı olan Azıx mağarasını göstərib söhbətini davam etdirərək, Tuğ kəndinə çatdığını, yazıçı Cəfər Cabbarlının “1905-ci ildə” əsərindəki hadisələrin məhz bu kənddə cərəyan etdiyini bir daha göz önünə gətirir.

Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi Azərbaycan xalqının qazandığı parlaq Qələbənin simvoludur. Belə bir qısa vaxtda icra olunan və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən “Zəfər yolu” adlandırılan avtomobil yolunun inşası dövlət başçısının daimi nəzarəti altında icra olunub.

Dörd il Azərbaycan xalqı, dövləti və ordusu elə bir tarix yazdı ki, bu, bütöv bir millətin ləyaqət rəmzinə, milli qeyrət nümunəsinə çevrildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 illik işğala cəmi 44 gündə son qoydu. Tariximizdə yeni səhifə yazıldı. Şanlı Ordumuz yağı düşmənin üstümüzə atdığı ləkəni təmizlədi, biz qamətimizi düzəltdik, illərlə həsrətində olduğumuz torpaqlarımıza qovuşduq. Biz heç nəyi unutmadıq, unutmadıqca da möhkəmləndik, gücləndik və nəhayət, dünyanın illərdir göz yumduğu ədalətsizliyi özümüz təkbaşına aradan qaldırdıq. Prezident İlham Əliyevin yüksək sərkərdəlik qabiliyyəti ilə qəhrəman ordumuzun Vətən müharibəsində qazandığı Qələbə Azərbaycan xalqının Zəfər məramına, milli kimlik mücadiləsinə, torpaq və Vətən sevgisinə şahidlik etdi.

Bəli, Zəfər yolu ilə sərt döngələri dolanıb Daşaltı kəndinə, sonra Şuşaya gəlirik. Axırıncı aşırımı keçəndən sonra göz önümüzdə Şuşanın gözəl panoramı açılır. İndiki Şuşa şəhəri böyük tikinti meydanına bənzəyir. Yuxarı Gövhərağa məscidi, Cıdır düzü, Topxana meşəsinin dağıdılmış ərazisi, Molla PənahVaqifin məqbərəsi, Xan qızı Natəvanın dağıdılmış malikanəsi, Şuşa Qalası, İsa bulağını bir-bir ziyarət edir, tikinti-quraşdırma işlərinin burada davam etdiyinin şahidi oluruq. Az vaxtda burada xeyli iş görülüb. Şuşada hər məhəllənin öz məscidi olub və indi də fəaliyyətini davam etdirir. “Xarıbülbül”, “Şuşa”, “Qarabağ” otelləri göz oxşayır, hər bir xarici, yaxud yerli insanın ruhuna




oxşarlıq əxz edir. Səliqəli, müasir üslublu 110/35/10 kilovoltluq “Şuşa” yarımstansiyasına baxdıqca adam riqqətə gəlir.

Axırda Cıdır düzünə, ərənlərin oylağına gələrək buradan əsrarəngiz dağ mənzərələrini seyr etdik. Bu düzdə Mən və jurnalist həmkarlarım 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə həlak olan Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri, Vətən Müharibəsi Qəhrəmanı İntiqam Əsgərlnin həlak olduğu yeri ziyarət etdik. Allahdan İntiqama, bütün şəhidlərimizə rəhmət dilədik, dualar etdik.

Təcrübəli jurnalist, MEDİA-nın icraçı direktorunun müavini Natiq Məmmədli jurnalistlərə verdiyi müsahibəsində bildirir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan böyük tikinti, quruculuq, bərpa işləri medianın əsas mövzusudur. Düşünürəm ki, bu səfərdən sonra da Şuşada və işğaldan azad olunmuş ərazilərdə aparılan işlər maraqlı yazılar, reportajlar şəklində Azərbaycan cəmiyyətinə təqdim ediləcəkdir.

Nədənsə gedəndə də, gələndə də anam yadıma düşmüşdü. Bu savadsız qadın vətənpərvərdi, bizə Ana Vətənimizi, torpağı sevdirərdi, yaradıcı insanları, hərb fatehlərini tanıtdırardı. Deyərdi ki, müharibəni başlayan da, qurtaran da bir baş (yəni bir adam) olur. Ağıllısı, müdriki dözür, fikirləşir, necə qalib gəlməyin yollarını tapır, müşahidə edir, udur... Anam düz deyirmiş, 30 il düşmən tapdağına dözəsən, səbr edəsən, müharibə edəsən, Qalib olasan, torpağını geri alasan, Bu zəka, mçüdriklik, dözüm tələb edir. Bizim Prezident kimi! İlham Heydər oğlu Əliyev bizə şəhidlərimizlə, qazilərimizlə birgə əyilən qəddimizi yüksəltdi, vüqarımızı, şərəfimizi qaytardılar. Nə qədər həyat var, biz onlara borcluyuq. Bizim Prezidentimiz başımızı ucaltdı, 200 il torpaq almayan bir dövlətdən torpağı geri alan xalqa çevirdi.

İlham Əliyev 2020-ci ilin 1 dekabrında deyirdi ki, 94 mülki vətəndaş həlak olub, 400-dən çox mülki vətəndaş vəhşi düşmən tərəfindən yaralanıb. Evi dağılmış insanlar dağıntılardan çıxarkən deyirdilər ki, ancaq irəli. Bilirsiniz, hər kəs bilməlidir və biz bütün dünyaya göstərdik ki, biz böyük xalqıq, yenilməz xalqıq. Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmağı bacardıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır. Mən artıq bu mövzu ilə bağlı müraciətlərimi yekunlaşdırıram. Əminəm, bundan sonra, əlbəttə ki, bir çox hallarda doğma xalqıma öz sözlərimi deyəcəyəm. Amma bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

Bəli, biz 100 il, 1000 illər bundan sonra da, həmişə, hər vaxt Qalib xalq olacağıq! Xalqımız öz torpaqlarında əbədi əmin-amanlıqda yaşayacaq. Ölkəmizin hər guşəsi gülüstana dönəcək.

***Əlihüseyn ŞÜKÜROV,***
***Masallıda çıxan “Yeni həyat” ictimai-siyasi qəzetinin Baş redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin və RF Jurnalistlər İttifaqının üzvü.***

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4724**
**Sifariş: 253**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas